Azad Qubadlı

(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)

2026, 16 iyun

- Dövlət Proqramı azad olunmuş ərazilərdə qabaqcıl kənd təsərrüfatı praktikalarının tətbiqini hədəfləyir – VİDEO
- Ötən həftə 51 mina və 497 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

2026, 15 iyun

- Qurtuluşun açdığı yol, Zəfərin ucaltdığı Azərbaycan
- Aydın Kərimov: İşğaldan azad olunmuş ərazilərdə 80 mindən çox insan yaşayır və çalışır – VİDEO

2026, 13 iyun

- 15 İyun xalqın strateji seçimi idi – ŞƏRH
- Azad edilmiş ərazilərdə 47 müəssisədə əməyin mühafizəsi ilə bağlı maarifləndirmə tədbirləri aparılıb
- Azərbaycan məktəblərində "Son zəng" sədaları – VİDEO

2026, 12 iyun

- Məcburi köçkünlərin mənzil təminatı ilə bağlı qanun layihəsi plenar iclasa tövsiyə olunub
- Nazir: İşğaldan azad olunmuş ərazilərdə infrastruktura 4 milyard manat vəsait yönəldilib – VİDEO
- ADSEA rəsmisi: Müasir suvarma texnologiyalarının tətbiqi sahəsinin 300 min hektara çatdırılması nəzərdə tutulur
- İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məşkunlaşma Fondu yaradılır
- Agentlik: Ölkə üzrə 4 min 194 ümumtəhsil məktəbi fəaliyyət göstərir

2026, 11 iyun

- Agentlik: Bu il 116 mindən çox şagird məzun olur

2026, 10 iyun

- Azad edilmiş ərazilərdə 5 hektardan bir parselləşmə işlərinin həyata keçirilməsi nəzərdə tutulur

2026, 9 iyun

- Keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

2026, 8 iyun

- Ötən həftə 149 mina və 412 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

2026, 5 iyun

- Azad olunmuş torpaqların su resursları ərzaq təhlükəsizliyinin zəmanətidir – ŞƏRH
- İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlər məşğulluq və sosial dəstək tədbirləri ilə əhatə olunublar

2026, 4 iyun

- Böyük Qayıdış Azərbaycan tarixinin mühüm hadisələrindən biridir TƏHLİL

2026, 3 iyun

- Mənzil Məcəlləsində dəyişiklik: İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaradılır – VİDEO
- Vüqar Bayramov: 2021-2025-ci illərdə keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 1 milyard 654 milyon manat ayrılıb

- Məcburi köçkünlərlə bağlı sosial dəstək mexanizmləri mərhələli şəkildə yeni modelə keçirilir TƏHLİL

2026, 1 iyun

- Ötən ay 284 mina və 1537 partlamamış digər hərbi sursat zərərsizləşdirilib
- Aydın Hüseynov: İşğaldan azad olunmuş ərazilərin aqrar potensialı Azərbaycanın iqtisadi inkişafına yeni töhfələr verəcək

2026, 28 may

- Agentlik: Azad edilmiş ərazilərə köçürülən sakinlərdən 10600-dək şəxsin məşğulluğu təmin edilib

2026, 26 may

- Kəndlərin inkişafı, bölgələrdə yaşayış səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir – ŞƏRH
- "QDF-in dostları" platforması çərçivəsində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının investisiya potensialı təqdim edilib
- Azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə dördüncü investisiya müsabiqəsi elan olunur
- Ədliyyə naziri Zəngilanda vətəndaşların müraciətlərini dinləyəcək
- Şərqi Zəngəzurda meyvə bağlarında monitorinq aparılıb
- Ötən həftə 78 mina və 416 digər partlayıcı sursat zərərsizləşdirilib

2026, 23 may

- Londonda Qarabağın alban xristian irsinə həsr olunan interaktiv platforma təqdim edilib

2026, 22 may

- Ramil Cahangirov: Azad edilmiş ərazilərdə şəhərsalma prosesində təhlükəsizlik bir nömrəli məsələdir – VİDEO
- Vüqar Süleymanov: Minatəmizləmə fəaliyyəti Böyük Qayıdış Proqramına uyğun icra olunur – VİDEO
- Anar Quliyev: Azad edilmiş ərazilərdə dünyanın ən iddialı bərpa işlərindən birini həyata keçiririk – VİDEO
- Azərbaycanda minadan zərərçəkənlərin 362-si uşaq və gənclər, 38 nəfəri isə qadınlardır – VİDEO
- Urbisiddən Dirçəlişə: WUF13-də Qarabağ və Şərqi Zəngəzurda davamlı bərpa, yenidən məskunlaşma və inkişaf barədə danışılıb
- WUF13 çərçivəsində ANAMA minatəmizləmənin şəhərlərin bərpasında strateji rolunu müzakirə edib – VİDEO

2026, 21 may

- Ramil Cahangirov: İşğaldan azad edilmiş bölgələrdə yenidənqurmanın ilk günlərindən beynəlxalq şirkətlərlə əməkdaşlığa başlanılıb

2026, 20 may

- Vahid Hacıyev: İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və minatəmizləmə işləri aparılır
- WUF13-də Azərbaycanın təqdim etdiyi şəhərsalma modeli beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılanır – ŞƏRH

2026, 18 may

- ANAMA: 57 mina və 378 digər partlayıcı sursat zərərsizləşdirilib

2026, 17 may

- Azərbaycan WUF13-də işğaldan azad edilmiş ərazilərdə bərpa təcrübəsini dünyaya təqdim edir – VİDEO

2026, 14 may

- İctimai Şura: Azad ərazilərdə keçmiş məcburi köçkünlərin daimi məskunlaşdırılması uğurla həyata keçirilir

2026, 9 may

- İşğaldan azad edilmiş ərazilərimizdə həyatın canlanması Heydər Əliyev ideyalarının təntənəsidir – ŞƏRH

2026, 5 may

- Qarabağ və Şərqi Zəngəzurda yaşıl və dayanıqlı inkişaf – ŞƏRH

2026, 1 may

- Ötən ay 460 mina və 3410 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

2026, 23 aprel

- Baş İdarə rəhbəri: İşğaldan azad olunmuş ərazilərdə sosial infrastruktur ehtiyatları planlaşdırılıb

2026, 21 aprel

- Keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışla bağlı müraciətləri dinlənilib
- Azad olunmuş ərazilərdəki yaylaqlara köçlə bağlı qeydiyyat davam edir

2026, 20 aprel

- Ötən həftə 1455 hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib

2026, 17 aprel

- İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı üçün ardıcıl işlər aparılır
- Azad olunmuş ərazilərdə yeni hərbi infrastruktur obyektləri yaradılır
- Nazirlik: Bu il peşə və kvalifikasiya standartlarının 1800-ə çatdırılması nəzərdə tutulub

2026, 16 aprel

- İşğaldan azad olunmuş ərazilərdə yol infrastrukturunun qurulması sürətlə davam edir

2026, 15 aprel

- 2027-2030-cu illərdə azad olunmuş ərazilərin bərpasına 13,3 milyard manat xərclənəcək – PROQNOZ

2026, 14 aprel

- Dövlət Komitəsində keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

2026, 13 aprel

- Ötən həftə 191 mina və 1661 partlamamış hərbi sursat zərərsizləşdirilib

2026, 7 aprel

- Vətəndaşların işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı müraciətləri dinlənilib
- ANAMA rəsmisi: Minatəmizləmə prosesində yeni innovasiyalardan istifadə edilir – VİDEO

2026, 6 aprel

- Ötən həftə 117 mina və 2254 partlamamış hərbi sursat zərərsizləşdirilib
- Avropa Azərbaycan Mərkəzi mina ilə çirkləndirilmiş ərazilərlə bağlı beynəlxalq ictimaiyyətə çağırış edib

2026, 1 aprel

- Ötən ay 503 mina və 4922 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

2026, 20 mart

- Ellərə bahar gəlir...

2026, 19 mart

- Şərqi Zəngəzur iqtisadi rayonu üzrə sahibkarların müraciətləri dinlənilib
  2026, 16 mart
- "Təmiz Şəhər" rəsmisi: İşğaldan azad olunmuş ərazilərdə məişət tullantıları zərərsizləşdiriləcək – VİDEO
- Ötən həftə 323 mina və 724 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO
  2026, 13 mart
- İşğaldan azad olunmuş regionlarda son 2 ildə göz müayinəsindən keçənlərin sayı açıqlanıb
- Azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəsi üzrə növbəti investisiya müsabiqəsi yekunlaşıb
- Parlamentdə Nazirlər Kabinetinin hesabatı dinlənilib
  2026, 12 mart
- İşğaldan azad olunmuş ərazilərdə əhaliyə göstərilən tibbi xidmətlər daha da təkmilləşdiriləcək
  2026, 4 mart
- Ötən il işğaldan azad olunmuş ərazilərdə 36 yarış təşkil edilib – VİDEO
  2026, 3 mart
- Mina təhlükəsi ilə əlaqədar maarifləndirici videoçarx hazırlanıb – VİDEO
  2026 2 mart
- Ötən ay 481 mina və 1621 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 23 fevral
- Ötən həftə 203 mina və 796 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 16 fevral
- Ötən həftə 60 mina və 130 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 11 fevral
- Nazir: İşğaldan azad edilmiş ərazilərdə yeni mədəniyyət ocaqlarının yaradılması əsas prioritetlər sırasındadır – VİDEO
  2026, 9 fevral
- Ötən həftə 105 mina və 223 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 2 fevral
- Ötən ay 374 mina və 1364 partlamamış hərbi sursat zərərsizləşdirilib
- Qarabağ regionunun florasının öyrənilməsi istiqamətində tədqiqatlar aparılır
  2026, 29 yanvar
- Azərbaycan həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş və qurucu aktor kimi çıxış edir – ŞƏRH
  2026, 28 yanvar
- Ötən il işğaldan azad olunmuş ərazilərin bərpasına 4,5 milyard manata yaxın vəsait ayrılıb
  2026, 27 yanvar
- İşgaldan azad edilmiş ərazilərdə 8 mindən çox vətəndaş işlə təmin olunub – VİDEO
- Keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib
  2026, 23 yanvar
- Dövlət Komitəsi mina təhlükəsinə dair yeni maarifləndirici videoçarx hazırlayıb – VİDEO
  2026, 19 yanvar
- Ötən həftə 69 mina və 253 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 13 yanvar

- Ötən il 70 min hektara yaxın ərazi minalardan təmizlənib
  2026, 12 yanvar
- Ötən həftə 177 mina və 636 partlamamış hərbi sursat zərərsizləşdirilib
  2026, 7 yanvar
- Böyük Qayıdış: insan mərkəzli inkişaf və dayanıqlı məskunlaşma strategiyası

Böyük Qayıdış: insan mərkəzli inkişaf və dayanıqlı məskunlaşma strategiyası

Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi ən genişmiqyaslı dövlət proqramlarından biri olan Böyük Qayıdış təşəbbüsü işğaldan azad edilmiş ərazilərdə yalnız fiziki infrastrukturun bərpasını deyil, eyni zamanda, insan resurslarının strateji planlaşdırılmasını, motivasiyasını və sosial adaptasiyasını əhatə edən kompleks inkişaf modeli kimi formalaşır. Müasir dövlət idarəçiliyi baxımından bu proqram klassik "yenidənqurma" yanaşmasından kənara çıxaraq insan mərkəzli və davamlı inkişaf prinsipinə əsaslanır.

Hazırda işğaldan azad edilmiş ərazilərdə 70 minə yaxın insanın yaşaması, çalışması və təhsil alması həyata keçirilən siyasətin real sosial nəticələr verdiyini göstərir. Keçmiş məcburi köçkünlərin 32 kənd, qəsəbə və şəhərdə mərhələli şəkildə yerləşdirilməsi bu prosesin təsadüfi deyil, planlı və idarəolunan mexanizmlər əsasında həyata keçirildiyini təsdiqləyir. Beynəlxalq təcrübədə bu yanaşma "dayanıqlı qayıdış modeli" kimi tanınır və əsas məqsəd yalnız əhalinin köçürülməsi deyil, onların yeni mühitdə uzunmüddətli və stabil yaşayışının təmin edilməsidir.

Bu fikirləri insan resursları üzrə ekspert Aytən Şıxalıyeva AZƏRTAC-a açıqlamasında söyləyib.

O bildirib ki, insan resurslarının idarə edilməsi baxımından Böyük Qayıdış proqramı xüsusi yanaşma tələb edən mərhələdir: "Burada prioritet işçi qüvvəsinin bölgələr üzrə yalnız say baxımından deyil, həm də peşə, bacarıq və potensial baxımından balanslaşdırılmasıdır. Dünya təcrübəsi göstərir ki, postmünaqişə zonalarında ən çox rast gəlinən problemlərdən biri əmək bazarında struktur uyğunsuzluğudur. Bu səbəbdən bərpa mərhələsində bacarıq əsaslı yerləşdirmə, çevik məşğulluq və regional ehtiyaclara uyğun kadr planlaması əsas alətlərdən biri kimi çıxış edir.

Bu kontekstdə iş yerlərinin açılması Böyük Qayıdışın sosial və iqtisadi dayanıqlığını təmin edən əsas faktorlardandır. Yeni yaşayış məntəqələrində sənaye, kənd təsərrüfatı, xidmət, logistika, tikinti və sosial infrastruktur sahələri üzrə yaradılan iş yerləri əhalinin bölgədə qalmaq motivasiyasını gücləndirir. Məşğulluq yalnız gəlir mənbəyi kimi deyil, eyni zamanda, insanların ictimai həyata inteqrasiyasını və sosial rolunun bərpasını təmin edən mexanizm kimi çıxış edir".

Ekspertin fikrincə, özünüməşğulluğun təşviqi insan resursları siyasətinin strateji istiqamətlərindən biri kimi ön plana çıxır: "Kiçik ailə təsərrüfatlarının, mikro və kiçik sahibkarlıq subyektlərinin formalaşdırılması yerli iqtisadi aktivliyi artırmaqla yanaşı, əhalinin dövlət dəstəyindən asılılığını azaldır. Beynəlxalq təcrübə göstərir ki, postmünaqişə zonalarında özünüməşğulluq proqramları həm məşğulluq səviyyəsini yüksəldir, həm də icma daxilində sosial məsuliyyət və sahiblik hissini gücləndirir.

Bu mərhələdə motivasiya amili insan resursları siyasətinin əsas dayaqlarından biri kimi çıxış edir. Beynəlxalq insan resursları praktikasında sübut olunub ki, yenidənqurma dövründə maddi təşviqlərlə yanaşı, stabil məşğulluq imkanları, sahibkarlığa çıxış, peşəkar inkişaf və icmaya mənsubiyyət hissi işçi motivasiyasını daha davamlı edir. Öz biznesini quran və ya yerli istehsal prosesində iştirak edən insanlar bölgənin sosial-iqtisadi inkişafının birbaşa iştirakçısına çevrilirlər".

Onun sözlərinə görə, araşdırmalar göstərir ki, yeni mühitə köçürülən əhalinin adaptasiyası üçün ilk 6–12 ay kritik dövr hesab olunur. Bu müddətdə iş imkanlarının mövcudluğu, gəlir mənbəyinin davamlılığı və iqtisadi fəallıq insanların bölgədə qalmaq qərarını birbaşa şərtləndirir. Bu baxımdan Böyük Qayıdış çərçivəsində insan amilinin ön plana çəkilməsi strateji əhəmiyyət daşıyır. Yeni mühitə qayıdan insanlar üçün iş yeri və ya özünüməşğulluq fəaliyyəti yalnız iqtisadi vasitə deyil, eyni zamanda, özünüdəyərin, sosial statusun və gələcəyə inamın formalaşdığı əsas platformadır. İnsan resurslarının idarə edilməsində bu balansın qorunması sosial sabitliyin möhkəmlənməsinə və bölgələrin uzunmüddətli inkişafına xidmət edir.

Ekspert bildirib ki, dövlət siyasətində insan resurslarının strateji resurs kimi qəbul edilməsi Böyük Qayıdış proqramının uzunmüddətli baxışını müəyyən edir. İnsanların yeni yaşayış və əmək mühitinə uğurlu adaptasiyası, işlə təmin olunması və öz iqtisadi fəaliyyətini qurması azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılmasında həlledici rol oynayır.

Əsl bərpa insanın yeni mühitdə özünü təhlükəsiz, faydalı və iqtisadi cəhətdən müstəqil hiss etməsi ilə başlayır. Böyük Qayıdış proqramının əsas gücü də məhz iş, özünüməşğulluq və insan mərkəzli yanaşmanı dövlət siyasətinin əsas xəttinə çevirməsindədir.

AZƏRTAC
7 yanvar, 2026

Ötən həftə 177 mina və 636 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən yanvarın 5-11-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 152, tankəleyhinə 25 mina və 636 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 875,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
12 yanvar, 2026

Ötən il 70 min hektara yaxın ərazi minalardan təmizlənib

Media Təhlil Mərkəzinin Minatəmizləmə Agentliyinin (ANAMA) açıqladığı rəsmi məlumatlar əsasında apardığı təhlilə əsasən, 2021–2025-ci illər ərzində ümumilikdə 248 min 391,6 hektar ərazi mina və partladılmamış hərbi sursatlardan təmizlənib.

Mərkəzdən AZƏRTAC-a verilən məlumata görə, rəsmi rəqəmlərə əsasən, 2024-cü ildə mina və partladılmamış sursatlardan təmizlənən ərazilərin ümumi sahəsi 62 min 23,9 hektar təşkil edib. 2025-ci ildə isə əvvəlki illə müqayisədə təmizlənən ərazilərin sahəsi 11,6 faiz və ya 7 min 181,8 hektar artaraq 69 min 205,7 hektara çatıb. Bu, son 5 il ərzində qeydə alınmış ən yüksək nəticədir.

İllər üzrə dinamikaya nəzər salındıqda görünür ki, 2021-ci ildə mina və partladılmamış sursatlardan təmizlənən ərazilərin sahəsi 20 min 164,7 hektar olub. 2022-ci ildə həmin göstərici əvvəlki illə müqayisədə 117,8 faiz və ya 23 min 751,1 hektar artaraq 43 min 915,8 hektara yüksəlib. 2023-cü ildə isə 2022-ci illə müqayisədə 20,9 faiz və ya 9 min 165,8 hektar artım qeydə alınıb, təmizlənən ərazilərin sahəsi 53 min 81,6 hektar təşkil edib.

Ümumilikdə təqdim olunan göstəricilər mina təhlükəsinin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin həcminin və intensivliyinin ildən-ilə artdığını nümayiş etdirir.

Aparılan təhlil nəticəsində müəyyən edilib ki, 2025-ci ildə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları zamanı 1 861 ədəd tankəleyhinə mina və 4 min 963 ədəd piyadaəleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Ümumilikdə isə 2021–2025-ci illər ərzində işğaldan azad olunmuş ərazilərdə 20 min 272 ədəd tankəleyhinə mina və 34 min 213 ədəd piyadaəleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

Qeyd olunmalıdır ki, minatəmizləmə əməliyyatları həm mina sahələrində, həm də vaxtilə döyüş əməliyyatlarının aparıldığı ərazilərdə icra edilir.

Minatəmizləmə fəaliyyəti ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, eləcə də 5 özəl şirkət tərəfindən həyata keçirilir.

Aparılan təhlil nəticəsində müəyyən edilib ki, 2025-ci ildə işğaldan azad olunmuş ərazilərdə 52 min 392 ədəd partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Ən yüksək artım 2024-cü ildə qeydə alınıb. Belə ki, 2023-cü ildə 23 min 49 ədəd partlamamış hərbi sursat zərərsizləşdirildiyi halda, 2024-cü ildə həmin göstərici əvvəlki illə müqayisədə 156,7 faiz və ya 36 min 114 ədəd artaraq 59 min 163 ədədə çatıb.

Əvvəlki illərin göstəricilərinə nəzər saldıqda, 2022-ci ildə 14 min 950 ədəd, 2021-ci ildə isə 21 min 942 ədəd partlamamış hərbi sursatın aşkar edilərək zərərsizləşdirildiyi məlum olur.

Ümumilikdə 2021–2025-ci illər ərzində işğaldan azad olunmuş ərazilərdə 171 min 496 ədəd partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın tədbirlər planına əsasən, 2026-cı ilin sonunadək 280 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub.

Proqram çərçivəsində 2022–2025-ci illər ərzində 228 min 227 hektar ərazi minalardan tam şəkildə təmizlənib.

Beləliklə, Dövlət Pproqramının icra müddətinin başa çatmasına təxminən bir il qalmış, nəzərdə tutulan ümumi ərazinin 81,5 faizi artıq minalardan tam təmizlənib, bu isə proqram üzrə tədbirlərin planlı və ardıcıl şəkildə icra edildiyini göstərir.

AZƏRTAC
13 yanvar, 2026

Ötən həftə 69 mina və 253 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən yanvarın 12-18-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 63, tankəleyhinə 6 mina və 253 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 508,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
19 yanvar, 2026

Dövlət Komitəsi mina təhlükəsinə dair yeni maarifləndirici videoçarx hazırlayıb – VİDEO

İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinə diqqəti artırmaq məqsədilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə birgə maarifləndirici videoçarx hazırlayıb.

AZƏRTAC xəbər verir ki, videoçarxda azad edilmiş ərazilərdə yaşayan uşaqların çərpələng uçurarkən xarabalıq bir ərazidə mina təhlükəsi ilə qarşılaşması təsvir edilir. Müvafiq nişan onları təhlükə olan yerə keçməkdən çəkindirir.

Layihənin əsas məqsədi sakinlərin, xüsusilə də uşaqların mina və partlamamış sursatlarla bağlı risklərdən xəbərdar olmasını təmin etmək, onlara təhlükəli ərazilərdən uzaq durmağın vacibliyini çatdırmaqdır.

AZƏRTAC
23 yanvar, 2026

https://video.azertag.az/site/video/292595

Keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

Yanvarın 27-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə vətəndaşların müraciətləri dinlənilib. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin doğma yurdlarında rahat və təhlükəsiz yaşayış şəraitinin təmin olunması məqsədilə verdiyi tapşırıqların ardıcıllıqla həyata keçirildiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini diqqətlə izlədiyi və onun göstərişləri ilə müvafiq tədbirlərin görüldüyü vurğulanıb.

Komitə sədri qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür. Vətəndaşların müraciətləri əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

AZƏRTAC
27 yanvar, 2026

İşgaldan azad edilmiş ərazilərdə 8 mindən çox vətəndaş işlə təmin olunub – VİDEO

İşğaldan azad edilmiş ərazilərdə 8 mindən çox vətəndaşımız işlə təmin olunub. 742 nəfərin isə məşğulluq proqramlarına cəlb edilməsi həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Hasil Abbasov 2025-ci ilin yekunlarına və 2026-cı ilin hədəflərinə həsr olunan mətbuat konfransında deyib.

O qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə vətəndaşlarımızın 58 faizi dövlət, 42 faizi isə özəl sektorda çalışmaqdadır. Peşə hazırlığına cəlb edilən vətəndaşların sayı isə 360-a çatır. 2025-ci ildə işğaldan azad olunmuş ərazilərdə 18 əmək yarmarkası da təşkil edilib.

AZƏRTAC
27 yanvar, 2026

Ötən il işğaldan azad olunmuş ərazilərin bərpasına 4,5 milyard manata yaxın vəsait ayrılıb

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2025-ci ilin dövlət büdcəsindən 4 milyard 465,7 milyon manat vəsait ayrılıb.

AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, həmin vəsaitin 3 milyard 781,9 milyon manatı və ya 84,7 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli vəsaitin, 373,2 milyon manatı və ya 8,3 faizi dövlət büdcəsinin ehtiyat fondunun vəsaitinin, 258,5 milyon manatı və ya 5,8 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə vəsaitin, 52,1 milyon manatı və ya 1,2 faizi dövlət büdcəsinin digər ehtiyatlarından ayrılmış vəsaitin payına düşür.

AZƏRTAC
28 yanvar, 2026

Azərbaycan həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş və qurucu aktor kimi çıxış edir – ŞƏRH

Azərbaycan builki Davos Forumunda geniş tərkibdə iştirak etdi. Prezident İlham Əliyevin Davosda həm müxtəlif şirkətlərin rəhbərləri, həm də müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlər Azərbaycanın həm beynəlxalq diplomatiyadakı gücünü, həm də iqtisadi sahədəki canlanmanı nümayiş etdirir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Zeynal Əmrəliyev deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycan işğaldan azad edilmiş bölgələrdə geniş quruculuq və abadlıq işləri həyata keçirir. Eyni zamanda, bu bölgələrə böyük investisiyaların cəlb edilməsi vacibdir. Bu amil, dünyadakı iş adamları üçün bölgəni potensial investisiya mərkəzi kimi cəlbedici edir. Belə beynəlxalq platformalarda iştirak etmək isə bu investisiya potensialını təbliğ etmək baxımından böyük əhəmiyyət daşıyır.

"Bildiyimiz ki, Davos İqtisadi Forumunda, yalnız dövlət və hökumət başçıları deyil, eyni zamanda, dünyanın aparıcı şirkətlərinin rəhbərləri, iqtisadi əlaqələr qurmaq istəyən iş adamları da iştirak edirlər. Bu baxımdan, keçirilən görüşlər Azərbaycanın iqtisadi potensialının artırılması və işğaldan azad edilmiş bölgələrə yeni investisiyaların cəlb olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Qeyd etmək lazımdır ki, bu cür platformalarda ölkəmiz layiqincə təmsil olunur. Beləliklə, biz gələcəkdə beynəlxalq şirkətlərin Azərbaycana, xüsusilə də işğaldan azad edilmiş bölgələrə böyük investisiya qoymasını görəcəyik. Buraya müxtəlif ölkələrin xüsusilə informasiya, kommunikasiya və texnologiya sahələrində fəaliyyət göstərən şirkətləri daxildir", - deyə politoloq əlavə edib.

Z.Əmrəliyev qeyd edib ki, Forumun digər önəmli məqamı olan Azərbaycanın Sülh Şurasında təmsil edilməsi isə ölkəmizin beynəlxalq sülhyaratma missiyasındakı rolunun göstəricisidir. Ölkəmiz bundan əvvəl də müxtəlif regionlarda, məsələn, İraq, Əfqanıstan və Kosovoda sülh təşəbbüslərində iştirak edib. ABŞ-ın təşəbbüsü ilə yaradılan Sülh Şurasında Azərbaycanın fəal üzv kimi iştirakı isə gələcək baxımından çox böyük əhəmiyyət daşıyır. Bu şura uzun illər mövcud olmuş münaqişələrin, xüsusilə gərgin bölgələrdəki vəziyyətin tənzimlənməsini öz üzərinə götürüb. Azərbaycanın burada təmsil olunması ölkəmizin beynəlxalq nüfuzunu daha da artıracaq.

"Biz də uzun illər özümüzə qarşı ədalətsizliyə - beynəlxalq təşkilatların fəaliyyətsizliyinə şahid olmuşuq. Təxminən 30 il ərzində beynəlxalq qurumlar kifayət qədər təsirli fəaliyyət göstərə bilmədi və BMT-nin bir sıra qərarları icra olunmamış qaldı. Azərbaycan isə öz gücü hesabına bölgədə sülh yaratdı və dünyadakı digər qlobal proseslərdə də fəal iştirak edir. Qeyd etmək lazımdır ki, Qəzza bölgəsi geniş potensiala malikdir. Gələcəkdə burada sülhyaratma missiyasının və Sülh Şurasının fəaliyyəti, eləcə də investisiyaların cəlb olunması ilə yeni şəhərlərin qurulması prosesi başlayacaq. Azərbaycan isə bu proseslərdə fəal və məsuliyyətli mövqeyi ilə xüsusi rol oynayacaq. Bu yanaşma ölkəmizin həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş və qurucu aktor kimi çıxış etdiyini göstərir", - deyə politoloq vurğulayıb.

AZƏRTAC
29 yanvar, 2026

Qarabağ regionunun florasının öyrənilməsi istiqamətində tədqiqatlar aparılır

Bakı Dövlət Universitetinin (BDU) Biologiya fakültəsinin Botanika və bitki fiziologiyası kafedrasında aparılan elmi-tədqiqat işləri müasir biologiya elminin aktual istiqamətlərini əhatə edir.

Bu barədə AZƏRTAC-a kafedra müdiri Elşad Qurbanov məlumat verib. O qeyd edib ki, hazırda Qarabağ regionunun florası və bitkiliyinin öyrənilməsi istiqamətində məqsədyönlü tədqiqatlar aparılır. Bu işlər işğaldan azad edilmiş ərazilərin bioloji müxtəlifliyinin bərpası, ekoloji vəziyyətinin qiymətləndirilməsi və təbii ehtiyatlarının səmərəli istifadəsi baxımından xüsusi önəm daşıyır. Aparılan elmi araşdırmaların nəticələrinin yaxın zamanda fundamental elmi kitab şəklində çap olunması nəzərdə tutulur.

AZƏRTAC
2 fevral, 2026

Ötən ay 374 mina və 1364 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2026-cı ilin yanvar ayında minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 337, tankəleyhinə 37 mina və 1364 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1 738,3 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
2 fevral, 2026

Ötən həftə 105 mina və 223 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 2-8-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 97, tankəleyhinə 8 mina və 223 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 669,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
9 fevral, 2026

Nazir: İşğaldan azad edilmiş ərazilərdə yeni mədəniyyət ocaqlarının yaradılması əsas prioritetlər sırasındadır – VİDEO

“Böyük Qayıdış” Proqramı çərçivəsində Mədəniyyət Nazirliyinin fəaliyyəti çoxşaxəlidir və sistemli şəkildə həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə mədəni infrastrukturun bərpası, yeni mədəniyyət ocaqlarının yaradılması və milli-mədəni irsin qorunması əsas prioritetlər sırasındadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri mədəniyyət naziri Adil Kərimli fevralın 11-də nazirliyin 2025-ci ildəki fəaliyyətinə həsr olunmuş kollegiya iclasında səsləndirib.

"2025-ci ildə bu istiqamətdə mühüm layihələr icra olunmuş, yeni mədəniyyət komplekslərinin inşası və mövcud obyektlərin bərpası üzrə genişmiqyaslı işlər görülüb. Cari ildə isə artıq həyata keçirilən layihələrin real nəticələrinin əldə olunacağı gözlənilir", - deyə nazir qeyd edib.

AZƏRTAC
11 fevral, 2026

Gülay Nəzərova

https://video.azertag.az/site/video/295887

Ötən həftə 60 mina və 130 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 9-15-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 53, tankəleyhinə 7 mina və 130 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 385 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
16 fevral, 2026

Ötən həftə 203 mina və 796 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 16-22-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 175, tankəleyhinə 28 mina və 796 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1616,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
23 fevral, 2026

Ötən ay 481 mina və 1621 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevral ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 410, tankəleyhinə 71 mina və 1621 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 4 264,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
2 mart, 2026

Mina təhlükəsi ilə əlaqədar maarifləndirici videoçarx hazırlanıb – VİDEO

İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinə qarşı diqqətin artırılması məqsədilə maarifləndirici videoçarx hazırlanıb.

Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlığı çərçivəsində hazırlanmış videoçarxın əsas məqsədi vətəndaşları və bölgəyə səfər edən şəxsləri mina təhlükəsi ilə əlaqədar xəbərdaredici nişanlara ciddi şəkildə əməl etməyə çağırmaq, təhlükəsizlik qaydaları barədə ictimai maarifləndirməni gücləndirməkdir. Videoçarxı təqdim edirik.

AZƏRTAC
3 mart, 2026

https://video.azertag.az/site/video/300499

Ötən il işğaldan azad olunmuş ərazilərdə 36 yarış təşkil edilib – VİDEO

Keçən il Azərbaycanda 71 beynəlxalq, 1776 yerli idman yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, bunu Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov Milli Məclisdə 5 Mart – Bədən tərbiyəsi və idman günü ilə bağlı Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və idman federasiyaları ilə keçirilən görüşdə deyib.

O bildirib ki, işğaldan azad olunmuş ərazilərdə 36 yarış təşkil edilib: "Bir neçə federasiya tərəfindən də onların nümayəndələri işğaldan azad olunmuş torpaqlara səfər edib. Çox müsbət haldır ki, idmanla məşğul olanların sayı artır".

AZƏRTAC
4 mart, 2026

https://video.azertag.az/site/video/300763

İşğaldan azad olunmuş ərazilərdə əhaliyə göstərilən tibbi xidmətlər daha da təkmilləşdiriləcək

Səhiyyə Nazirliyində "İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili" üzrə İşçi qrupunun növbəti iclası keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, İşçi qrup Prezidentin "Böyük Qayıdışa dair II Dövlət Proqramı" və "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanmasına dair tapşırıqların icrası ilə bağlı Səhiyyə Nazirliyinin müvafiq əmri ilə yaradılıb.

Səhiyyə naziri Teymur Musayevin sədrliyi və aidiyyəti üzrə dövlət qurumlarının iştirakı ilə keçirilən İşçi qrupun növbəti iclasında "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərdə təşkil olunmuş tibbi xidmət və mövcud vəziyyətlə bağlı aparılmış monitorinqlər və qiymətləndirmənin mövcud vəziyyəti müzakirə edilib.

Bununla əlaqədar olaraq, iclasda Səhiyyə Nazirliyi tərəfindən aparılmış təhlil, ictimai səhiyyə, təcili, təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə xidməti və ixtisaslaşdırılmış tibbi xidmətin təşkili ilə bağlı Strateji Baxışa dair təqdimat edilib.

"Böyük Qayıdışa dair II Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaya uyğun olaraq əhaliyə göstərilən tibbi xidmətlərin daha da təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi və əlçatanlığının təmin edilməsi, həmçinin aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Eyni zamanda, mülki və hərbi-tibbi infrastrukturun səmərəli istifadəsi məqsədilə çarpayı fondunun optimallaşdırılması, əhalinin dərman vasitələri ilə təminatında logistik zəncirin qurulması, əhali və tibb işçiləri arasında psixososial dəstək işinin aparılması və tibbi savadlılığın artırılması məsələlərinə də toxunulub.

Aparılan monitorinqlər nəticəsində işğaldan azad edilmiş ərazilərdə tibb müəssisələrinin fəaliyyətinin bərpası, səyyar tibbi xidmətlərin genişləndirilməsi, tibb müəssisələrinin kadrlarla təmini, tibbi heyətin fəaliyyətinin stimullaşdırılması və infrastrukturun inkişafı sahəsində görülən işlər və qarşıda duran vəzifələr ətraflı təhlil edilib.

Nazir çıxışında qeyd edib ki, Böyük Qayıdış Proqramının səhiyyə komponenti prioritet sahələrdən biridir və əhalinin sağlamlığının qorunması, keyfiyyətli tibbi yardımın fasiləsiz təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindəndir. İşçi qrupu bu sahədə koordinasiyanı gücləndirmək və effektiv həll yolları tapmaq məqsədilə müntəzəm olaraq fəaliyyət göstərir.

İclasın yekununda qarşıda duran vəzifələrin icrası ilə bağlı növbəti addımlar müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib. Qeyd edilib ki, işğaldan azad olunmuş ərazilərdə tibbi xidmətlərin təşkili davam etdiriləcək və bu sahədə bütün zəruri tədbirlər həyata keçiriləcək.

AZƏRTAC
12 mart, 2026

Parlamentdə Nazirlər Kabinetinin hesabatı dinlənilib

Martın 13-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən Milli Məclisin sədri bildirib ki, son illərdə Azərbaycan regional inkişaf sahəsində ciddi uğurlar qazanıb. Azad edilmiş ərazilərin bərpası və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Sonra Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyəti haqqında hesabatı təqdim edib.

Baş nazir 2025-ci ili Azərbaycan üçün siyasi sabitliyin daha da gücləndiyi və iqtisadi inkişafın ardıcıl şəkildə həyata keçirildiyi mərhələ kimi xarakterizə edib. Qeyd olunub ki, Azərbaycan hesabat ilində beynəlxalq və regional platformalarda fəal iştirakını davam etdirib. 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş Zirvə Görüşünün regionda sülh və əməkdaşlıq üçün yeni imkanlar yaratdığı bildirilib.

Əli Əsədov deyib ki, 2025-ci il ölkənin iqtisadi inkişafı baxımından uğurlu olub. Hesabat ilində ümumi daxili məhsulun real həcmi əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 129,1 milyard manata çatıb.

Qeyd edilib ki, qeyri-neft sektoru real ifadədə 2,7 faiz artaraq 92,3 milyard manat olub və iqtisadiyyatda yaradılan ümumi əlavə dəyərin 72 faizi məhz bu sektorun payına düşüb. Qeyri-neft-qaz sənayesində 5,5 faiz artım qeydə alındığı halda, neft-qaz sektorunda 1,6 faiz azalma müşahidə olunub. Bildirilib ki, neft hasilatının azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olub.

Baş nazir vurğulayıb ki, xarici ticarətdə 6,4 milyard dollarlıq müsbət saldo qeydə alınıb, qeyri-neft ixracı isə 8 faizdən çox artaraq 3,6 milyard dolları ötüb. Bu göstəricilər ölkənin ixrac potensialının genişləndiyini və beynəlxalq rəqabət qabiliyyətinin yüksəldiyini göstərir.

Diqqətə çatdırılıb ki, hesabat dövründə strateji valyuta ehtiyatları təqribən 14,1 milyard dollar və ya 20 faiz artaraq 85 milyard dolları keçib. 2025-ci ildə inflyasiya hədəf diapazonunda olub.

Baş nazir qeyd edib ki, 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması istiqamətində sosial siyasət tədbirləri davam etdirilib. 2025-ci ildə əhalinin nominal gəlirləri və orta aylıq əməkhaqqının artım tempi illik inflyasiya səviyyəsini üstələyib.

O, ötən il əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39,5 faizinin və ya 15,3 milyard manatının sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldiyini bildirib. Bu 2024-cü illə müqayisədə 601,5 milyon manat çoxdur. Vurğulanıb ki, son yeddi il ərzində 4 milyon vətəndaşı əhatə edən 5 sosial paket həyata keçirilib və bu məqsədlər üçün 8 milyard manat məbləğində vəsait xərclənib. Təkcə keçən il 1,4 milyard manat büdcə vəsaiti bu məqsədlər üçün sərf olunub. Maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərlə bağlı qeyd olunub ki, 2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılıb. Bu isə əvvəlki ilin məbləğindən 23 faiz çoxdur. Qeyd edilib ki, ötən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal olunub. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Baş nazir diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam edir. Hesabat ilinin sonuna bu ərazilərdə yaşayan (məskunlaşan, işləyən və oxuyan) əhalinin sayı təqribən 75 min nəfərə çatıb. Dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq işlərinə 2025-ci il də daxil olmaqla indiyədək ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4,4 milyard manat vəsait ayrılıb.

Vurğulanıb ki, ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 504 milyon manat vəsait ayrılıb.

Həmçinin qeyd olunub ki, 2025-ci il ərzində ixrac boru kəmərləri vasitəsilə ümumilikdə 25,2 milyard kubmetr qaz ixrac edilib. Avropa bazarı ilə yanaşı, yeni istiqamətlər üzrə əməkdaşlıq inkişaf etdirilib və ötən il Azərbaycan qazını alan ölkələrin sayı artaraq 14-ə yüksəlib. Hazırda bu ölkələrin sayı 16-ya çatıb.

Sonra plenar iclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr aparılıb.

Çıxış edən deputatlar bildiriblər ki, Nazirlər Kabinetinin 2025-ci il üzrə hesabatı dövlətimizin başçısının müəyyənləşdirdiyi strategiyanı özündə ehtiva etməklə, hökumətin qarşısına qoyulan vəzifə və tapşırıqların uğurla yerinə yetirildiyini göstərir.

Deputatlar 2025-ci ildə hökumətin gördüyü işlər barədə hesabatın əhatəli hazırlandığını, ötən ilin ölkənin siyasi, iqtisadi və sosial sahələrində əhəmiyyətli irəliləyişlərlə yadda qaldığını söyləyiblər. Qeyd olunub ki, Prezidentin milli maraqların qorunması baxımından həyata keçirdiyi siyasət sayəsində və hökumətin səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasına, firavanlığa, inkişafa nail olunub.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova qaldırılan bəzi məsələlərə münasibət bildirmək üçün Baş nazir Əli Əsədova söz verib.

Əli Əsədov ötən il ümumilikdə deputatlar tərəfindən hökumətə daxil olmuş müraciətlərdə qaldırılan məsələlərlə bağlı görülən işlər barədə danışıb. Bildirilib ki, qaldırılan məsələlərin çoxu həll olunub, digər məsələlərin icrası istiqamətində işlər davam etdirilməkdədir.

İclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı səsə qoyularaq nəzərə alınıb.

AZƏRTAC
13 mart, 2026

Azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəsi üzrə növbəti investisiya müsabiqəsi yekunlaşıb

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi Qaydaları"na uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi prosesi davam etdirilir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə 2025-ci il 15 dekabr tarixində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə II investisiya müsabiqəsi elan edilib, sənəd qəbulu prosesi 5 fevral tarixində yekunlaşıb. Müsabiqədə iştirak üçün ümumilikdə 162 sahibkarlıq subyekti müraciət edib.

Bu il fevralın 27-də II investisiya komissiyasının müsabiqənin yekunlarına həsr olunmuş iclası keçirilib, iclasda müsabiqə iştirakçıları və qaliblərin siyahısı təsdiqlənib. Müsabiqə iştirakçısı hesab edilən sahibkarlıq subyektləri nəticələrlə bağlı sms vasitəsilə məlumatlandırılıblar. Qalib elan edilmiş sahibkarlıq subyektlərinin məlumatlandırılması prosesi isə mərhələli şəkildə davam etdirilir.

AZƏRTAC
13 mart, 2026

İşğaldan azad olunmuş regionlarda son 2 ildə göz müayinəsindən keçənlərin sayı açıqlanıb

İşğaldan azad olunmuş ərazilərimizdə 2024-cü ildən etibarən oftalmoloji müayinələr və müalicələr aparılır. Bu, erkən korluğun qarşısını alan əsas məqamlardan biridir. Son 2 ildə həmin ərazilərdə 1800-dən çox şəxs bu müayinələrdən yararlanıb.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Elmi-məlumat, təşkilati-metodik bölməsinin rəhbəri, tibb üzrə elmlər doktoru Yazgül Abdıyeva Bakıda keçirilən Azərbaycan Qlaukomatoloqlarının VII elmi-praktiki konfransı çərçivəsində çıxışında deyib.

Onun sözlərinə görə, Azərbaycanda oftalmoloji xidmətin optimallaşması üçün böyük işlər görülür: "Azərbaycanda Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Gəncə, Şəki, Masallı filialı, Z.Əliyevanın adını daşıyan Dəmiryol Səyyar Klinikası fəaliyyət göstərir. Səyyar Klinika vasitəsilə bir gündə 400 şəxsi müayinə etmək, 50-yə qədər əməliyyat etmək mümkündür. Hər filialımız, mərkəzimiz yüksək texnoloji avadanlıqlarla təchiz olunub. Son 21 ildə təkcə Dəmiryol Səyyar Klinikasında 45 mindən çox şəxs müayinə olunub".

AZƏRTAC
13 mart, 2026

Nailə Həsənova

Ötən həftə 323 mina və 724 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən martın 10-15-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC -a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 129, tankəleyhinə 194 mina və 724 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1 234,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
16 mart, 2026

https://video.azertag.az/site/video/303579

“Təmiz Şəhər” rəsmisi: İşğaldan azad olunmuş ərazilərdə məişət tullantıları zərərsizləşdiriləcək – VİDEO

Dayanıqlı şəhər idarəçiliyində tullantıların idarə olunması çox vacibdir. Bu işdə ictimaiyyətin dəstəyinə böyük ehtiyac var. Bərk məişət tullantılarının düzgün idarə olunmasında ilkin çeşidləmə xüsusi rol oynayır. Media nümayəndələrinin “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin (ASC) təsərrüfat sahələrində məhz həmin prosesi görməsi, onunla bağlı məlumatlı olması daha çox vətəndaşın bununla bağlı informasiya əldə etməsinə və tullantıların düzgün idarə olunmasına töhfə vermiş olacaq.

AZƏRTAC xəbər verir ki, bunu “Təmiz Şəhər” ASC-nin şöbə müdiri Orxan Cabbarov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, “Təmiz Şəhər” ASC Bakı şəhərində əmələ gələn tullantıların təxminən 1 milyon tona qədərini təsərrüfat sahələrində qəbul edir və müasir üsullarla zərərsizləşdirir: “Həmin təsərrüfat sahələri Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu, Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu, Balaxanı Sənaye Parkı, Balaxanı Şəhər Tullantıları Poliqonudur. İl ərzində 500 min tona qədər tullantı Bakı Bərk Məişət tullantılarının yandırılması zavodunda termik üsulla zərərsizləşdirilir, nəticədə 200 milyon kilovat-saat enerji əldə olunur. Bu da 110 min ev təsərrüfatının enerjiyə olan ehtiyacının ödənilməsi deməkdir. Yəni təxminən Gəncə böyüklükdə şəhərin enerji təminatını məhz həmin zavod həyata keçirir. Eyni zamanda, Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi zavodunda tullantılar çeşidlənərək təkrar emala Balaxanı Sənaye Parkına istiqamətləndirilir. Son 5 ildə təkcə təkrar emala göndərilməsi məqsədilə 29 min 500 ton karton çeşidlənib. Bu da o deməkdir ki, 500 mindən çox ağacın kəsilməsinin qarşısı alınıb. Eyni zamanda, 3 min 700 ton plastik tullantı, pet şüşələr, 2 min 800 ton şüşə tullantılar təkrar emala xammal olaraq qazandırılıb”.

Orxan Cabbarov qeyd edib ki, “Təmiz Şəhər” ASC-nin fəaliyyət istiqamətlərindən biri tibbi tullantıların düzgün idarə olunmasıdır: “2025-ci ilin iyulundan Azərbaycanda tibbi tullantıların düzgün idarə olunması məqsədilə “Təmiz Şəhər” ASC tərəfindən beynəlxalq standartlara cavab verən sterilizasiya məntəqəsi fəaliyyətə başlayıb. Daşınmanı həyata keçirən tərəflərin, şirkətlərin tibbi tullantıları həmin məntəqəyə gətirib təhvil vermələri tövsiyə olunur. Çünki müasir üsullarla məhz həmin məntəqədə beynəlxalq standartlara cavab verən şəkildə zərərsizləşdirmə həyata keçirilir. Saatda 500 kiloqrama qədər tullantılar 130-135 dərəcə temperaturda sterilizasiya olunur və təhlükəsiz tullantılara çevrilir. Təhlükəli tullantılar hesab etdiyimiz B və C kateqoriyalı tullantılar tibb müəssisələrində toplandıqdan sonra onları müxtəlif şirkətlər daşıyır. Daşınma, eyni zamanda, zərərsizləşdirmə standartlara cavab verməlidir. Çünki bu, həm insanların sağlamlığı, həm gələcəklə bağlı hər hansı bir pandemiyaların yaranmaması, həm də şəhər mühitində dayanıqlı sağlamlıq məsələlərinə diqqət yetirmək baxımından çox önəmlidir. Eyni zamanda, nəqliyyat vasitələrinin utilizasiya proqramını icra edirik. 2024-cü ildən bu vaxta qədər 23 min 589 nəqliyyat vasitəsi utilizasiyaya təhvil verilib və bunun qarşılığında 1273-ə qədər yerli istehsal nəqliyyat vasitəsi proqram çərçivəsində vətəndaşlar tərəfindən əldə olunub. Bir çox istiqamət var ki, onlardan biri “Tullantıdan sənətə” beynəlxalq sərgisidir. Bu da insanların maariflənməsinə xidmət edən istiqamətdir. Dünyanın 46 ölkəsindən 200-ə qədər yaradıcı şəxs “Tullantıdan sənətə” beynəlxalq sərgisinə qoşularaq tullantılara toxunuşları ilə ikinci həyat qazandırırlar və onlar Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qalada yaradılmış “Tullantıdan sənətə” muzeyində ziyarətçilərə nümayiş etdirilir”.

Şöbə müdiri diqqətə çatdırıb ki, “Təmiz Şəhər” ASC-nin digər fəaliyyət istiqaməti işğaldan azad olunmuş ərazilərdə bərk məişət tullantılarının qəbulu və zərərsizləşdirilməsi prosesidir: “Hazırda məskunlaşma və ərazi planlaşdırılmasına uyğun olaraq poliqon yerləri müəyyənləşdirilir. Orada bərk məişət tullantıları qəbul olunaraq müasir üsullarla zərərsizləşdiriləcək. Həmin istiqamətdə də müasir infrastrukturun yaradılması nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilər “sıfır emissiya” zonası elan olunduğu üçün Bərk Məişət Tullantılarının düzgün idarə olunması vacib istiqamətlərdən biridir”.

AZƏRTAC
16 mart, 2026

Göyçək Mahmudlu

https://video.azertag.az/site/video/303639

Şərqi Zəngəzur iqtisadi rayonu üzrə sahibkarların müraciətləri dinlənilib

Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarından olan sahibkarların onlayn qəbulu keçirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, agentliyin təşkilatçılığı ilə keçirilmiş qəbul zamanı İdarə Heyəti sədrinin müavini Emil Hüseynli və KOBİA-nın müvafiq struktur bölmələrinin nümayəndələri sahibkarları dövlətin dəstək alətləri, o cümlədən bölgə üzrə vergi güzəştləri və azadolmalar, regionun biznes potensialı, agentliyin dəstək alətləri barədə məlumatlandırıblar. Həmçinin qəbul zamanı sahibkarların özünüməşğulluq proqramı, logistika, sahibkarlığın inkişafına dəstək mexanizmləri barədə sualları cavablandırılıb.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilər üzrə KOBİA-nın beş ünvanda xidmət infrastrukturu fəaliyyət göstərir və sahibkarlar, eləcə də biznesə başlamaq istəyən şəxslər bu imkandan faydalana bilərlər.

Qəbul zamanı sahibkarların qaldırdığı bəzi məsələlər qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün aidiyyəti qurumlarla birgə araşdırılacaq.

AZƏRTAC
19 mart, 2026

Ellərə bahar gəlir...

Xalqımız qədim milli bayramı – Novruzu qeyd edir

Ağappaq qarın altından sapsarı novruzgülü çiçəyi, kolun dibindən gömgöy bənövşə boy göstərir. Gün vurduqca sinəsindən buğ qalxan ana torpağın qırışığı açılır. Ağaclar tumurcuq tutur, çöllər, düzlər ilmə-ilmə, naxış-naxış yaşıl don geyir. Qaranquş təzəcə puçurlayan budağa qonub nəğmə oxuyur.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanda Novruz bayramı təntənə və sevinclə qarşılanır. Ölkəmizin hər yerində, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə Novruz tonqalları qalanır. Tonqal ətrafına toplaşan sakinlər yurdumuza qədəm qoyan baharın onlara böyük ümidlər gətirəcəyini gözləyirlər.

Təbiət oyanır, təbiət canlanır. Hər səhər dan yerində Günəş qırmızı tonqal qalayır. Havalar isindikcə hər yerdən yazın ətri gəlir. Dağlarda buz bağlamış çaylar, şəlalələr əriyərək sazlı-sözlü aşığa çevrilir, qönçələr, çiçəklər yavaş-yavaş açmağa başlayır. Dolan buludlardan səpilən yaz yağışları düz-dünyaya nur ələyir, göylər yeddi rəngli xalı toxuyur. Hər yerdə yazın qədəmləri duyulur. Boşqablarda, nəlbəkilərdə cücərdilən yamyaşıl səməni yazın gəlişindən soraq verən əlamət sayılır.

Bu il yaz fəsli martın 20-si saat 18:45-də Azərbaycana daxil olacaq. Həmin vaxt gecə ilə gündüz bərabərləşəcək və Günəş düz şərqdə doğub, qərbdə batacaq. Günəş ekliptika üzrə hərəkət edib ekvatoru kəsərək, Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçəcək. Şimal yarımkürəsində yaz, Cənub yarımkürəsində isə payız fəsli başlayacaq.

AZƏRTAC xalqımızın qədim milli bayramı olan Novruz bayramın tarixini, onun yaddaşımızdakı yeri və qarşılanması ənənələrini xatırladır.

Novruzun tarixi qədim minilliklərə gedib çıxır. Qədim türk və Şərq xalqlarının dünyagörüşündə mühüm yer tutan Novruz zaman keçdikcə müxtəlif mədəniyyətlərin təsiri ilə zənginləşib. Azərbaycan torpağında isə Novruz xalqın milli-mənəvi kimliyinin ayrılmaz hissəsinə çevrilib.

Novruz Azərbaycan xalqının ən qədim və ən sevimli bayramı, mənəvi dəyərlərin, adət-ənənələrin və birlik ruhunun təntənəsidir. Novruz sözü fars dilindən tərcümədə “yeni gün” deməkdir. Həmin vaxtlardan yazın gəlişi, gecə-gündüz bərabərliyi kimi qeyd olunur. İnsanlar təbiətin yenilənməsini öz həyatlarının da yenilənməsi kimi qəbul edib, baharın ilk gününü yeni başlanğıcların rəmzinə çeviriblər. Qırğızlar onu Nooruz, özbəklər Növroz, başqırd türkləri Nevruz, tatarlar Navruz, çuvaşlar Naurus, Krım türkləri Nevrez, Qərbi trakiyalılar Mevris adlandırıblar.

Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər qədimdir. Elmdə Novruzun mənşəyinə dair iki fikir mövcuddur. Onlardan birində Novruz türklərin ən qədim təbiət bayramı hesab olunur. Çin mənbələrində hunların martın 21-də bahar şənlikləri təşkil etdikləri barədə qeydlər var. Uyğur türklərinin də müasir adətlərlə eyniyyət təşkil edən yaz mərasimləri olub. Qobustan qayaüstü rəsmlərində isə daha qədim çağlara aid ilin dəyişməsi ayini təsvir olunub. Türklərin “Ərgənəkon” dastanında əski yurda dönüş yazın ilk günü ilə əlaqələndirilir.

İkinci istiqamət əsasən İran əfsanələrindən törəyən mərasimlər toplusudur. XI əsrin yazılı abidələrində, xüsusilə Firdovsinin “Şahnamə”sində “Novruz”dan bəhs edilir. Farslarda məhz həmin zamandan sonrakı çağlara aid ədəbiyyatlarda ondan geniş danışılır.

Novruz bayramı Əhəmənilər dövründə eramızdan əvvəl 350-ci ildən qeyd olunsa da, tarixi kökləri zərdüştlükdən əvvələ gedib çıxır. Bayramın bütün əlamətləri — tonqal qalamaq, səməni cücərtmək, Kosa-Keçəl tamaşaları, günəşi çağırış, qodu ilə qapıları döymək, umu-küsülüyə son qoymaq, dünyadan köçənləri yad etmək, yumurta boyamaq, yumurta döyüşdürmək, yeddi növ nemətdən xonça hazırlamaq, evdə, həyət-bacada təmizlik işləri görmək, ocaqda qazan qaynatmaq, papaq atmaq, bacadan xurcun sallamaq, ocağın başına toplaşmaq, qulaq falına çıxmaq təbiət-insan qarşılaşmasının rituallaşması və bayramlaşmasıdır.

Xalqımızın yaddaşında Novruz bayramı yalnız bir təqvim hadisəsi deyil, bütöv bir həyat tərzidir. Baharın gəlişi ilə insanlar qəlblərində ümid, sevinc və yeni başlanğıclar arzusu hiss edirlər. Bu günlərdə insanlar evlərini təmizləyir, həyətlərini səliqəyə salır, sanki köhnə ilin bütün ağrı-acılarını arxada qoymağa çalışırlar.

Novruzun gəlişi bir neçə həftə əvvəl hiss olunmağa başlayır. Xalq təqviminə görə bayramdan əvvəl su, od, yel və torpaq çərşənbələri qeyd olunur. Xüsusi adət və mərasimlərlə qarşılanan həmin çərşənbələrin hər biri qədim insanların təbiət ünsürlərinə olan inamını əks etdirir. Su çərşənbəsi həyatın başlanğıcını, od çərşənbəsi istiliyi və işığı, yel çərşənbəsi hərəkəti və dirçəlişi, torpaq çərşənbəsi isə təbiətin oyanışını simvolizə edir.

Novruzun ən maraqlı və rəngarəng ənənələrindən biri tonqal qalamaqdır. Həyətlərdə tonqal yandırır, onun üzərindən tullanırlar ki, azar-bezar qovurulub yansın, ağrı-acı ilim-ilim itsin. Həmin qədim ritual bütün pisliklərdən uzaqlaşmağı, dərd-qəmdən arınmağı simvolizə edir. Tonqalın işığı sanki qaranlığı qovur, ümid və sevinc gətirir.

Bayram süfrəsi isə Novruzun ən gözəl simvollarından biridir. Süfrənin ortasında yaşıl cücərti – səməni qoyulur. Səməni həyatın yenilənməsinin, bolluq və bərəkətin rəmzi sayılır. Süfrədə müxtəlif şirniyyatlar – paxlava, şəkərbura, qoğal, badambura yer alır. Həmin şirniyyatların hər birinin öz mənası var. Məsələn, paxlava ulduz formasında hazırlanaraq kainatı və günəşi xatırladır, qoğal isə günəşin istiliyini simvolizə edir.

Novruz günlərində xalq arasında müxtəlif oyunlar və əyləncələr keçirilir. Uşaqlar qapılara papaq atır, yumurta döyüşdürür, şən mahnılar oxuyurlar. Həmin tədbirlər yalnız əyləncə deyil, həm də insanların bir araya gəlib birlik və həmrəylik nümayiş etdirməsinin gözəl nümunəsidir.

Novruz bayramının təşəkkül tapmasında, inkişaf etməsində xalqımızın mühüm töhfəsi var. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev deyib: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir".

Prezident İlham Əliyev isə xalqa ünvanlanan Novruz təbrikində deyib: "Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüz illərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır".

Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı artıq UNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti nəticəsində Novruzu UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil ediblər. 2010-cu il fevralın 23-də isə BMT Baş Məclisi martın 21-ini Beynəlxalq Novruz Günü elan edib.

Novruz dünyada 300 milyondan artıq əhalinin yeni ilin başlanğıcı kimi qəbul etdiyi bayramdır. Artıq 3 min ildir ki, onu Balkanlarda, Qara dəniz hövzəsi regionunda, Qafqazda, Mərkəzi Asiyada, Yaxın Şərqdə və digər regionlarda qeyd edirlər.

Novruz bir çox türk xalqları ilə bərabər, Azərbaycan xalqının milli-mənəvi varlığını dolğunluğu ilə əks etdirən, ümumxalq səviyyəsində qeyd olunan, etnik təfəkkürün ayrılmaz funksional səviyyəsinə çevrilən bayramdır. Novruz xalqın ortaq duyğu və düşüncələrini dilə gətirən, türk mədəniyyətinin qorunub yaşadılmasında əhəmiyyətli yeri olan qədim el bayramıdır.

Yazın gəlişini müjdə verən Novruz bayramı təbiətin oyanışı, həyatın yenilənməsi və ümidlərin təntənəsidir. O, xalqımızın qədim köklərini, zəngin mədəniyyətini və milli ruhunu ifadə edən mənəvi körpü, yaddaşlarda yaşayan əbədi bir həyat fəlsəfəsidir.

AZƏRTAC
20 mart, 2026

Ötən ay 503 mina və 4922 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mart ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 236, tankəleyhinə 267 mina və 4922 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 5336,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
1 aprel, 2026

https://video.azertag.az/site/video/305903

Avropa Azərbaycan Mərkəzi mina ilə çirkləndirilmiş ərazilərlə bağlı beynəlxalq ictimaiyyətə çağırış edib

Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi 4 Aprel – Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda Azərbaycanda mina ilə çirkləndirilmiş ərazilərdə davam edən ağır humanitar vəziyyətlə bağlı narahatlıq ifadə olunub.

Bu barədə AZƏRTAC-a Avropa Azərbaycan Mərkəzinin sədri, Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin üzvü Zaur Əliyev məlumat verib.

Bəyanatda qeyd olunub ki, Azərbaycanın uzun illər işğal altında qalmış ərazilərində basdırılmış minalar və partlamamış hərbi sursat bu gün də mülki əhali üçün ciddi və davamlı təhlükə yaradır. Bu təhlükə təkcə insan həyatı və sağlamlığı üçün risk yaratmır, həm də keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını, həmin ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini, eləcə də dayanıqlı sülhün və sabitliyin təmin olunmasını ləngidir.

Sənəddə vurğulanıb ki, mina ilə çirkləndirilmiş ərazilər problemi beynəlxalq humanitar hüququn fundamental prinsipləri, xüsusilə mülki şəxslərin qorunması, humanitar risklərin aradan qaldırılması və postmünaqişə dövründə təhlükəsiz həyat şəraitinin bərpası baxımından son dərəcə ciddi məsələdir. Mina təhlükəsinin uzunmüddətli xarakter daşıması və bu sahədə zəruri məlumatların vaxtında və tam şəkildə təqdim olunmaması mülki insanların həyatını davamlı risk altında saxlayır.

Həmçinin qeyd olunub ki, Azərbaycanda mina partlayışları nəticəsində mülki şəxslərin, o cümlədən uşaqların, dövlət nümayəndələrinin və bərpa-quruculuq işlərində iştirak edən şəxslərin həlak olması və ya ağır yaralanması bu problemin yalnız texniki məsələ deyil, birbaşa insan həyatı, təhlükəsizlik və postmünaqişə dövrü ilə bağlı ciddi humanitar məsələ olduğunu bir daha göstərir.

Avropa Azərbaycan Mərkəzi beynəlxalq ictimaiyyəti, beynəlxalq təşkilatları, Avropa institutlarını, BMT sisteminə daxil olan aidiyyəti qurumları, insan hüquqları mexanizmlərini və siyasi qərarvericiləri Azərbaycanın mina ilə çirkləndirilmiş əraziləri ilə bağlı daha qətiyyətli və ardıcıl mövqe nümayiş etdirməyə çağırıb. Mina xəritələrinin tam şəkildə təqdim olunmasının, çirkləndirilmiş ərazilərin sürətli və sistemli şəkildə təmizlənməsinin, mina qurbanlarının hüquqlarının müdafiəsinin gücləndirilməsinin, onların tibbi, sosial və psixoloji reabilitasiyasına əlavə dəstəyin göstərilməsinin və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığı bildirilib.

“Beynəlxalq humanitar hüquq və insan hüquqları prinsipləri universal şəkildə tətbiq olunmalı, mülki şəxslərin həyatı, təhlükəsizliyi və öz torpaqlarına təhlükəsiz qayıtmaq hüququ hər bir halda qorunmalıdır. Bu baxımdan, Azərbaycanın mina təhlükəsi ilə üzləşmiş əraziləri ilə bağlı daha fəal, daha məsuliyyətli və daha prinsipial beynəlxalq yanaşma həm hüquqi, həm humanitar, həm də mənəvi baxımdan zəruridir”, - deyə bəyanatda qeyd olunub.

AZƏRTAC
6 aprel, 2026

Elvin Mövsüm
AZƏRTAC-ın xüsusi müxbiri

Berlin

Ötən həftə 117 mina və 2254 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 30 mart – 5 aprel tarixlərində icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 83, tankəleyhinə 34 mina və 2 254 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 2278,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
6 aprel, 2026

ANAMA rəsmisi: Minatəmizləmə prosesində yeni innovasiyalardan istifadə edilir – VİDEO

Hazırda minatəmizləmə prosesində yeni innovasiyalardan istifadə olunur. Kəşfiyyat mərhələsində ərazilər dronlar vasitəsilə qiymətləndirilir və əldə edilən məlumatlar əsasında təmizləmə üçün müəyyən olunmuş metodologiyadan istifadə edilir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Əməliyyatların Koordinasiyası idarəsinin rəisi Rahib Quliyev bu gün Bakıda ANAMA ilə Gənclər Fondunun tərəfdaşlığı, "Böyük Qayıdış" Gənclər Təşkilatının təşəbbüsü ilə keçirilən "Böyük Qayıdış naminə təhlükəsiz gələcək" adlı forum çərçivəsində jurnalistlərə açıqlamasında bildirib.

O deyib ki, bu yanaşma əməliyyatların daha təhlükəsiz, dəqiq və səmərəli həyata keçirilməsinə imkan yaradır:"Əməliyyatlar zamanı əsasən işlərin sürətli aparılması üçün mexaniki minatəmizləmə vasitələrindən və mina axtaran itlərdən istifadə olunur. Mexaniki minatəmizləmə vasitələri əsas təmizləmə vasitələri deyil, onlar prosesin sürətləndirilməsi məqsədilə torpağın yumşaldılması, bitki örtüyünün azaldılması və riskin minimuma endirilməsi üçün tətbiq olunur. Bu texnikalar üzərində daim təkmilləşdirmə işləri aparılır ki, daha effektiv nəticə əldə olunsun və mina partlayışı riski minimuma endirilsin. Təcrübəmizdə, həmçinin minaaxtaran siçovullardan istifadə də var", - deyə o əlavə edib.

AZƏRTAC
7 aprel, 2026

Nailə Həsənova

https://video.azertag.az/site/video/307227

Vətəndaşların işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı müraciətləri dinlənilib

Aprelin 7-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə vətəndaşların müraciətləri diqqətlə dinlənilib. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Görüşdə Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin doğma yurdlarında rahat və təhlükəsiz yaşayış şəraitinin təmin olunması məqsədilə verdiyi göstərişlərin ardıcıllıqla həyata keçirildiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini diqqətlə izlədiyi və onun tapşırıqları ilə müvafiq tədbirlərin görüldüyü vurğulanıb.

Komitə sədri bildirib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı binalarda və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür.

Vətəndaşların müraciətləri, əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

AZƏRTAC
7 aprel, 2026

Ötən həftə 191 mina və 1661 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 6-12-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 144, tankəleyhinə 47 mina və 1661 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 2052,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
13 aprel, 2026

Dövlət Komitəsində keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

Aprelin 14-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə vətəndaşların müraciətləri diqqətlə dinlənilib. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin doğma yurdlarında rahat və təhlükəsiz yaşayış şəraitinin təmin olunması məqsədilə verdiyi göstərişlərin ardıcıllıqla həyata keçirildiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini diqqətlə izlədiyi və onun tapşırıqları ilə müvafiq tədbirlərin görüldüyü vurğulanıb.

Komitə sədri bildirib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı binalarda və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür.

Vətəndaşların müraciətləri, əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

AZƏRTAC
14 aprel, 2026

2027-2030-cu illərdə azad olunmuş ərazilərin bərpasına 13,3 milyard manat xərclənəcək – PROQNOZ

İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclərin (Böyük qayıdış I Proqramının layihəsi) 2027-2030-cu illərdə 13 milyard 300 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bunun da əsaslı xərclərdə xüsusi çəkisi 24,3 faizdir.

AZƏRTAC Maliyyə Nazirliyinin 2027-2030-cu illər üzrə Ortamüddətli büdcə çərçivəsinə istinadla xəbər verir ki, 2027-ci il üçün dövlət büdcəsinin əsaslı xərcləri çərçivəsində bir sıra strateji əhəmiyyətli tədbirlərin ("Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı", "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" və s. dövlət proqramları çərçivəsində) maliyyələşdirilməsi nəzərdə tutulur. Həmçinin ortamüddətli dövrdə dövlət büdcəsinin əsaslı xərclərinin mühüm hissəsini Böyük Qayıdış Proqramının icrası və ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi təşkil edir.

AZƏRTAC
15 aprel, 2026

İşğaldan azad olunmuş ərazilərdə yol infrastrukturunun qurulması sürətlə davam edir

İşğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat infrastrukturunun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr icra olunur. Hazırda ümumi uzunluğu 3 878,1 kilometr olan 68 layihə üzrə tikinti işlərinin aparılması nəzərdə tutulur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, bu çərçivədə ümumi uzunluğu 1 454,3 kilometr olan 30 layihə artıq başa çatdırılıb. Eyni zamanda, ümumi uzunluğu 2 432,8 kilometr təşkil edən 38 layihə üzrə tikinti işləri davam etdirilir.

Tunellərin tikintisi də diqqət mərkəzində saxlanılır. Belə ki, ümumi uzunluğu 71,2 kilometr olan 48 tunelin inşası planlaşdırılıb. Onlardan ümumi uzunluğu 13,6 kilometr olan 7 tunelin tikintisi yekunlaşıb, 57,6 kilometr uzunluğa malik 41 tunel üzrə isə işlər davam edir.

Körpü tikintisi sahəsində də mühüm irəliləyişlər əldə olunub. Ümumilikdə uzunluğu 9 581,6 metr olan 447 körpünün tikintisi nəzərdə tutulur. Bu günədək ümumi uzunluğu 8 839,1 metr olan 392 körpü artıq istifadəyə verilib.

Bununla yanaşı, ümumi uzunluğu 3 871 metr olan 16 viadukun inşası planlaşdırılıb. Onlardan 1 965 metr uzunluğa malik 9 viadukun tikintisi başa çatdırılıb.

Görülən işlər nəticəsində işğaldan azad olunmuş ərazilərdə müasir yol infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır, bölgənin sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradılır.

AZƏRTAC
16 aprel, 2026

Nazirlik: Bu il peşə və kvalifikasiya standartlarının 1800-ə çatdırılması nəzərdə tutulub

Prezident İlham Əliyevin tapşırıqları əsasında ölkəmizdə sosial təminat sistemi ildən-ilə gücləndirilir və cari ilin əvvəlindən bu istiqamətdə növbəti addım atılıb: pensiyaların 9,3 faiz indeksləşdirilərək artırılması təmin edilib. Təkcə ilk rüb ərzində pensiya təminatına ayrılan vəsait ötən ilin müvafiq dövrünə nisbətən 200 milyon manat artaraq 2 milyard 53 milyon manat olub. Eyni zamanda, digər sosial ödənişlərə yönəldilən vəsaitlər artıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu barədə nazirlikdə keçirilən növbəti kollegiya iclasında bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev sosial müdafiə sahəsində işlərin davam etdirilməsi ilə yanaşı, aktiv məşğulluq proqramlarının ildən-ilə genişləndirildiyini vurğulayıb. O, işğaldan azad olunan ərazilərimizə köçürülən sakinlərin məşğulluğunun təminatının nazirlik üçün başlıca fəaliyyət istiqaməti olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, işəgötürənlərlə sıx əməkdaşlıq şəraitində bu sahədə işədüzəltmə, özünüməşğulluq proqramı, peşə hazırlığı proqramı, əmək yarmarkaları, birgə maliyyələşmə proqramı və digər proqramlar icra olunur və getdikcə genişləndirilir. Böyük Qayıdış proqramı üzrə həmin ərazilərə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların artıq 9470 nəfərinin məşğulluğu təmin edilib, həmçinin 807 nəfər şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə bizneslər qurulub. Köçürülmüş sakinlərdən 432-si isə peşə hazırlığı kurslarına cəlb edilib.

Əmək bazarında işçi qüvvəsinə tələb və təklifin uyğunlaşdırılması və rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün son bir ildə 300, son illərdə 1600-dən çox peşə və kvalifikasiya standartının hazırlandığı bildirilib. Bu il standartın sayının 1800-ə çatdırılmasının nəzərdə tutulduğu qeyd edilib.

Əmək münasibətləri sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı bu il aparılmış islahatların işçi hüquqlarının daha güclü müdafiəsini təmin edən mexanizmlərin yaradılması, əmək münasibətlərinin çevik və sosialyönümlü prinsiplər əsasında tənzimlənməsi, eləcə də müasir dövrün tələblərinə uyğun yeni anlayışların hüquqi bazaya daxil edilməsi məqsədi daşıdığı vurğulanıb. Əlilliyi olan şəxslərin hüquqlarının qorunması, onların inklüziv cəmiyyətə inteqrasiyasının artırılması istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub.

Ötən dövrdə pensiya təyinatlarının proaktiv qaydada aparılması işlərindən bəhs olunub, qarşıdakı dövrdə də nazirlik tərəfindən sosial xidmətlərin elektronlaşdırılması işlərinin davam etdiriləcəyi, proaktiv qaydada təyin olunan sosial ödəniş növlərinin əhatə dairəsinin genişləndiriləcəyi diqqətə çatdırılıb.

İclasda beynəlxalq əlaqələr, daxili nəzarət və audit sahələrində görülən işlər və qarşıda duran vəzifələr də müzakirə olunub.

AZƏRTAC
17 aprel, 2026

Azad olunmuş ərazilərdə yeni hərbi infrastruktur obyektləri yaradılır

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, eləcə də hərbi infrastruktur obyektlərinin inşası və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə əsaslı təmir olunan və yeni inşa olunan təlim mərkəzi və hərbi hissələrdə görülən işlərlə tanış olub.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib ki, keyfiyyətli tikinti materialları ilə inşa edilən yeni hərbi obyektlərdə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məsələsi daima prioritetdə saxlanılır və xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün zəruri imkanlar yaradılır.

Nazirliyin rəhbər heyəti təmir-tikinti işlərinin yüksək keyfiyyətlə və plana uyğun müddətdə yekunlaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

AZƏRTAC
17 aprel, 2026

İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı üçün ardıcıl işlər aparılır

Böyük Qayıdış Proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin olunması istiqamətində işəgötürənlərlə birgə ardıcıl işlər həyata keçirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu barədə nazirlikdə işəgötürənlərlə keçirilən növbəti görüşdə bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev doğma yurdlarına qayıdan sakinlərin həm işlə təminatı, həm yeni peşələrə yiyələnməsi, həm də özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə bizneslərinin qurulması sahəsində aparılan işləri diqqətə çatdırıb.

Görüşdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Təmiz Şəhər" ASC, "Azərişıq" ASC, "AzərEnerji" ASC, SOCAR, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nümayəndələri iştirak ediblər.

İşğaldan azad olunmuş ərazilərdə işçi və işəgötürənlər üçün tətbiq olunan güzəşt və imtiyazlar da diqqətə çatdırılıb. Həmin bölgələrdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması sahəsində görüləcək birgə işlər müzakirə edilib.

AZƏRTAC
17 aprel, 2026

Ötən həftə 1455 hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 13-19-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 62, tankəleyhinə 17 mina və 460 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib. 1455,4 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

AZƏRTAC
20 aprel, 2026

Azad olunmuş ərazilərdəki yaylaqlara köçlə bağlı qeydiyyat davam edir

Qoyunçuluq və arıçılıq təsərrüfatlarını işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara aparmaq istəyən fermerlərin qeydiyyatı prosesi davam edir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qeydiyyat prosesi Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) alt modulu eagro.az vasitəsilə həyata keçirilir və fermerlər öz təsərrüfatlarına dair məlumatları sistemə daxil etməklə müraciət edə bilərlər.

Təsərrüfatlarını azad olunmuş ərazilərdəki yaylaqlara aparmaq istəyən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarından, yaxud İmişli, Beyləqan, Ağdaş, Yevlax, Mingəçevir, Ucar, Zərdab və Samux rayonlarından birində qeydiyyatda olan fermerlər eagro.az portalına öz təsərrüfatları haqqında məlumatları daxil edərək qeydiyyatdan keçə bilərlər.

Fermerlərə yaylaq sahəsi portal vasitəsilə seçdiyi ərazi üzrə ayrılacaq.

2026-cı il yaylaq mövsümü dövründə arıçılıq təsərrüfatlarının Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Laçın və Kəlbəcər rayonları ərazisinə, qoyunçuluq təsərrüfatlarının isə Laçın və Kəlbəcər yaylaqlarına köçürülməsinə icazə verilir.

Fermerlərin təqdim etdiyi məlumatlar yoxlanıldıqdan sonra təsdiq ediləcək və köç tarixi ilə bağlı SMS bildiriş göndəriləcək.

Fermerlər əlavə məlumat üçün Dövlət Aqrar İnkişaf mərkəzlərinə müraciət edə bilər.

AZƏRTAC
21 aprel, 2026

Keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışla bağlı müraciətləri dinlənilib

Aprelin 21-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə vətəndaşların müraciətləri diqqətlə dinlənilib. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin doğma yurdlarında rahat və təhlükəsiz yaşayış şəraitinin təmin olunması məqsədilə verdiyi göstərişlərin ardıcıllıqla həyata keçirildiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini diqqətlə izlədiyi və onun tapşırıqları ilə müvafiq tədbirlərin görüldüyü vurğulanıb.

Komitə sədri bildirib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı binalarda və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür.

Vətəndaşların müraciətləri, əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

AZƏRTAC
21 aprel, 2026

Baş İdarə rəhbəri: İşğaldan azad olunmuş ərazilərdə sosial infrastruktur ehtiyatları planlaşdırılıb

Şəhərlər yalnız binalardan və yollardan ibarət deyil, şəhər ilk növbədə insan üçün formalaşdırılan sosial məkandır. Genderə həssas yanaşma bu prosesdə mühüm yer tutur. Şəhər məkanının planlaşdırılması zamanı qadınların gündəlik həyat təcrübəsi, təhlükəsizlik hissi, ictimai nəqliyyatdan istifadə imkanları, sosial xidmət obyektlərinə çıxış, işıqlandırma və ictimai məkanların təşkili kimi məsələlər xüsusi diqqətə saxlanmalıdır. “Təhlükəsiz şəhər” anlayışı yalnız fiziki təhlükəsizlik deyil, eyni zamanda, sosial təhlükəsizlik və rahatlıq deməkdir. Genderə həssas yanaşma sadəcə qayda və norma məsələsi deyil, şəhərin necə qurulması ilə bağlı əsas məsələdir.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəhbəri Qədir Babayev "Təhlükəsiz şəhərlər: Dayanıqlı inkişaf modellərinin planlaşdırılmasında genderə həssas yanaşma” adlı dəyirmi masada çıxış edərkən deyib.

Onun sözlərinə görə, şəhər məkanı hər kəs üçün eyni təsir göstərmir: "Planlaşdırma zamanı qəbul edilən qərarlar bəzi insanların hərəkətini asanlaşdıra, digərlərinin isə imkanlarını məhdudlaşdıra bilər. Qadınların gündəlik hərəkət trayektoriyası daha çoxşaxəlidir. Bunlar yaşayış yeri, məktəbəqədər müəssisə, məktəb, iş yeri, səhiyyə və xidmət obyektlərdir. Bu marşrutların təhlükəsizliyi, vaxt məsrəfi və əlçatanlığı birbaşa olaraq qadınların iqtisadi və ictimai iştirakına təsir göstərir".

Qədir Babayev vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma prosesi genderə həssas və insan mərkəzli planlaşdırma modelinin tətbiqi üçün strateji imkan yaradıb: "Yeni Baş Planlarda qarışıq funksional zonalaşma tətbiq edilib, sosial obyektlər yaşayış məhəllələrinin strukturu elementlərinə çevrilib, piyada əlçatanlığı əsas göstərici kimi müəyyən edilib, ictimai məkanlarda təhlükəsizlik və müşahidə oluna bilmə prinsipi təmin edilib. Artan əhali dinamikası nəzərə alınaraq sosial infrastruktur ehtiyatları planlaşdırılıb".

AZƏRTAC
23 aprel, 2026

Günel Türksoy

Ötən ay 460 mina və 3410 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2026-cı ilin aprel ayında minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 344, tankəleyhinə 116 mina və 3410 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 7788,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
1 may, 2026

Qarabağ və Şərqi Zəngəzurda yaşıl və dayanıqlı inkişaf – ŞƏRH

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları postmünaqişə dövründə Azərbaycanın inkişaf strategiyası çərçivəsində yaşıl enerji zonası və dayanıqlı inkişaf istiqamətli region kimi formalaşma potensialına malikdir. Beynəlxalq ədəbiyyatda geniş istifadə olunan "green growth policy" yanaşması bu kontekstdə ümumi konseptual çərçivə kimi çıxış etsə də, onun birbaşa və standartlaşdırılmış tətbiqi regionun spesifik xüsusiyyətlərini tam əks etdirməyə bilər. Bu baxımdan, Qarabağın ekoloji, infrastruktur və institusional reallıqlarını nəzərə alan adaptiv və lokalizə olunmuş mərhələli inkişaf modelinin tətbiqi daha məqsədəuyğun hesab olunur.

Bu fikirlər UNEC Beynəlxalq əməkdaşlıq departamentinin Xarici əlaqələr şöbəsinin müdiri, Gəncə Dövlət Universitetinin doktorantı və tədqiqatçı Rəsul Yusibovun AZƏRTAC-a təqdim etdiyi məqalədə yer alıb. Məqalədə qeyd olunur ki, müxtəlif beynəlxalq qiymətləndirmələrə əsasən, işğal dövründə Azərbaycanın transsərhəd su və hidroenerji resurslarının əhəmiyyətli hissəsi (təqribən 20–25 faiz potensial istifadə imkanları daxil olmaqla) effektiv idarəetmədən kənarda qalıb. Bu resurslar sırasında Sərsəng su anbarı, Suqovuşan I və II hidroqovşaqları, eləcə də Qız qalası su sistemi mühüm yer tutur. Bu infrastruktur elementləri yalnız enerji istehsalı baxımından deyil, həm də kənd təsərrüfatı suvarma sistemlərinin dayanıqlılığı, içməli su təhlükəsizliyi və regional ekoloji balansın qorunması kontekstində strateji əhəmiyyət daşıyır.

Eyni zamanda, uzunmüddətli idarəetmə boşluqları su resurslarının keyfiyyəti, hidroekosistemlərin sabitliyi və aqrar məhsuldarlıq göstəriciləri üzərində müəyyən risklər formalaşdırıb. Bu səbəbdən hidroresursların idarə olunması sahəsində elmi əsaslı monitorinq sistemlərinin qurulması, rəqəmsal su idarəetmə mexanizmlərinin tətbiqi və institusional koordinasiyanın gücləndirilməsi zəruri hesab olunur.

Şəhər inkişafı və beynəlxalq əməkdaşlıq kontekstində Sürix şəhərində fəaliyyət göstərən "SA Partners" təşkilatı ilə urban planlama və dayanıqlı şəhər inkişafı sahəsində əməkdaşlıq Qarabağın yenidən qurulması prosesində metodoloji və praktiki əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq çərçivəsində "ağıllı şəhər" planlaması, enerji səmərəli tikinti standartları və sosial infrastrukturun optimallaşdırılması kimi istiqamətlər prioritet hesab olunur. Paralel olaraq, Yaponiyanın TEPSCO şirkətinin enerji mühəndisliyi və texniki layihələndirmə sahəsində mövcud təcrübəsi regionun enerji sistemlərinin modernizasiyası və texnoloji transformasiyası üçün potensial əməkdaşlıq istiqaməti kimi qiymətləndirilir.

Qubadlı və Zəngilan rayonlarında sənaye və aqrar sektorun bərpası çərçivəsində dəyər zəncirlərinin formalaşdırılması, xüsusilə tekstil və kənd təsərrüfatı istehsalının inkişafı mühüm prioritetlər sırasındadır. Bu proses yalnız istehsal gücünün artırılması ilə məhdudlaşmır, eyni zamanda, bilik transferi, institusional öyrənmə və insan kapitalının inkişafını əhatə edir.

"Ağıllı kənd" modeli Qarabağ regionunda kənd təsərrüfatının rəqəmsallaşdırılması və resursların səmərəli idarə olunması baxımından nəzəri və praktiki əhəmiyyət daşıyır. Sensorəsaslı suvarma sistemləri, rəqəmsal torpaq monitorinqi və ekoloji istehsal mexanizmləri bu modelin əsas komponentlərini təşkil edir və kənd təsərrüfatında məhsuldarlığın artırılması ilə yanaşı, ekoloji dayanıqlılığın təmin olunmasına xidmət göstərir.

Logistika və nəqliyyat infrastrukturu baxımından "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən həyata keçirilən regional inteqrasiya layihələri Qarabağın iqtisadi və ticarət sistemlərinə reinteqrasiyasında mühüm rol oynayır. Bu infrastruktur inkişafı aşağı karbonlu nəqliyyat sistemlərinin formalaşdırılması və yaşıl logistika yanaşmalarının tətbiqi baxımından da əhəmiyyətlidir.

Nəticə etibarilə, Qarabağın dayanıqlı inkişafı yalnız iqtisadi deyil, eyni zamanda, institusional və ekoloji transformasiya tələb edən kompleks bir prosesdir.Yaşıl inkişaf yanaşmasının tətbiqi ilkin mərhələdə yüksək investisiya və institusional xərclər tələb etsə də, uzunmüddətli dövrdə enerji təhlükəsizliyi, investisiya cəlbediciliyi və ekoloji sabitlik baxımından daha səmərəli nəticələr formalaşdırır.

Bu kontekstdə xüsusi iqtisadi zonaların yaradılması, vergi stimullarının tətbiqi və beynəlxalq texnoloji əməkdaşlığın genişləndirilməsi strateji inkişaf alətləri kimi çıxış edir.

AZƏRTAC
5 may, 2026

İşğaldan azad edilmiş ərazilərimizdə həyatın canlanması Heydər Əliyev ideyalarının təntənəsidir – ŞƏRH

Ümummilli Lider Heydər Əliyev yalnız müasir Azərbaycan dövlətinin memarı deyil, eyni zamanda, xalqın ən ağır və taleyüklü dövrlərində ona yol göstərən xilaskar lider idi. Ulu Öndərin siyasi müdrikliyi, qətiyyəti və milli maraqlara söykənən uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövlətçiliyi qorundu, ölkədə sabitlik bərqərar oldu və inkişafın möhkəm təməli yaradıldı. Ümummilli Lider bütün fəaliyyəti dövründə Azərbaycan xalqının rifahını, milli birliyini və dövlət müstəqilliyini hər şeydən üstün tuturdu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü, "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyinin sədri Xatirə Vəliyeva deyib.

O xatırladıb ki, 1990-cı illərin mürəkkəb və çətin dövründə Azərbaycan böyük təhlükələrlə üz-üzə qaldığı bir zamanda Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqın taleyində dönüş nöqtəsi oldu. Məhz onun rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitlik təmin edildi, qanunçuluq möhkəmləndirildi, iqtisadi inkişaf strategiyası müəyyənləşdirildi və Azərbaycanın beynəlxalq nüfuzu sürətlə artmağa başladı. Bu gün ölkəmizin əldə etdiyi bütün uğurların əsasında məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən dövlətçilik kursu dayanır.

"Xankəndidən və digər doğma yurdlarımızdan məcburi köçkün düşmüş insanlar üçün Heydər Əliyev hər zaman ümidin, inamın və milli həmrəyliyin simvolu olub. Ümummilli Lider qaçqın və məcburi köçkün soydaşlarımızın problemlərini daim diqqətdə saxlayır, onların sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması və doğma torpaqlara qayıdış arzularının yaşadılması istiqamətində mühüm qərarlar qəbul edirdi. O, dəfələrlə vurğulayırdı ki, Azərbaycan heç vaxt torpaqlarının işğalı ilə barışmayacaq və ölkəmizin ərazi bütövlüyü mütləq bərpa olunacaq.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Heydər Əliyev siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması, işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirilməsi Ümummilli Liderin ideyalarının təntənəsidir. İşğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Xankəndidə yenidən həyatın canlanması, doğma yurd yerlərimizin dirçəldilməsi hər bir azərbaycanlı kimi məcburi köçkün ailələrinə də böyük sevinc və qürur yaşadır", - deyə QHT sədri əlavə edib.

X.Vəliyeva diqqətə çatdırıb ki, bu gün Azərbaycan dünyada güclü, nüfuzlu və söz sahibi olan dövlət kimi tanınırsa, bunun əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf yolu dayanır.

"Ümummilli Lider milli-mənəvi dəyərlərin qorunmasına, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsinə, vətəndaş cəmiyyətinin inkişafına xüsusi önəm verir, azərbaycançılıq ideologiyasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirirdi. Bu ideyalar bu gün də xalqımızı bir amal ətrafında birləşdirir. Biz inanırıq ki, Heydər Əliyevin zəngin siyasi irsi və dövlətçilik məktəbi gələcək nəsillər üçün daim örnək olacaq, müstəqil Azərbaycan bundan sonra da onun ideyaları əsasında inkişaf edəcək. Ulu Öndərin əziz xatirəsini böyük ehtiramla anır, onun ruhu qarşısında dərin minnətdarlığımızı bildiririk", - deyə o vurğulayıb.

AZƏRTAC
9 may, 2026

İctimai Şura: Azad ərazilərdə keçmiş məcburi köçkünlərin daimi məskunlaşdırılması uğurla həyata keçirilir

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın növbəti iclası keçirilib.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsinə dəstək verilməsi, Böyük Qayıdış prosesində ictimai nəzarətin və iştirakçılığın təmin edilməsi, vətəndaşların müraciətlərinin cavablandırılması və digər məsələlər iclasda ətraflı müzakirə olunub.

Müzakirəyə çıxarılan məsələlərlə bağlı İctimai Şuranın sədri Anar Xəlilovun məlumatı dinlənilib. Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırıqlarına və "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbir Planına əsasən, keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərdə bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrində daimi məskunlaşdırılması uğurla həyata keçirilir. Şura üzvləri Böyük Qayıdışla bağlı tədbirlərdə fəal iştirak edir, bu prosesin təşkilinin bütün mərhələlərində ictimai rəyi öyrənir, öz ata-baba yurduna geri dönən vətəndaşlarla görüşlər keçirirlər. İctimai Şuranın üzvlərinə müraciətlərin operativ qaydada həll edilməsi üçün Dövlət Komitəsinin struktur bölmələrinin rəhbərləri ilə interaktiv əlaqə mövcuddur. Bu cür əməkdaşlıq təkcə Böyük Qayıdışla deyil, ümumilikdə məcburi köçkünlərlə bağlı bütün məsələlərin diqqətdə saxlanılmasına və vaxtında həll edilməsində əhəmiyyətli rol oynayır.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev İctimai Şuranın üzvləri ilə görüşərək, onlarla səmərəli əməkdaşlığın qurumun öz işini daha da təkmilləşdirməsi, qarşıya qoyulan vəzifələri ictimai iştirakçılıq şəraitində, şəffaf şəkildə yerinə yetirməsi üçün vacib olduğunu qeyd edib. Bildirib ki, Şura üzvləri tərəfindən səsləndirilən təkliflərə, irəli sürülən təşəbbüslərə daim diqqət göstərilir. Böyük Qayıdış prosesində ictimai nəzarətin təşkil edilməsi, keçmiş məcburi köçkünlərlə birbaşa əlaqələrin qurulması və Dövlət Komitəsinə ictimai rəyin çatdırılması Şuranın fəaliyyətinin təqdirəlayiq cəhətidir.

Sonra Dövlət Komitəsinin struktur bölmələrinin nümayəndələri ilə İctimai Şura üzvləri arasında fikir mübadiləsi aparılıb.

AZƏRTAC
14 may, 2026

Azərbaycan WUF13-də işğaldan azad edilmiş ərazilərdə bərpa təcrübəsini dünyaya təqdim edir – VİDEO

Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri üzrə təcrübəsini beynəlxalq ictimaiyyətə təqdim edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib.

Komitə sədri qeyd edib ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın qarşısında genişmiqyaslı bərpa və yenidənqurma prosesi dayanıb və bu istiqamətdə mühüm nəticələr əldə olunub.

"İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələr dünya üçün də maraqlı təcrübədir. Burada həm institusional təşkilatlanma, həm planlaşdırma yanaşmaları, həm tikinti prosesinin təşkili, həm də insanların doğma torpaqlarına qayıdışı ilə bağlı kompleks işlər həyata keçirilir", – deyə Anar Quliyev vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycan bu təcrübəni WUF13 platformasında bölüşməklə postmünaqişə dövründə şəhərsalma və bərpa məsələlərinə dair yanaşmalarını təqdim edir.

"Bu gün dünyada münaqişə və fövqəladə vəziyyətlərdən zərər çəkmiş ərazilərin sayı artır. Belə vəziyyətlərdən sonra ərazilərin bərpası bir çox ölkələrin gündəliyində duran əsas məsələlərdən birinə çevrilir. Azərbaycan isə bu sahədə topladığı təcrübəni paylaşmağa hazırdır", – deyə komitə sədri əlavə edib.

AZƏRTAC
17 may, 2026

Pərvanə Qafarova

https://video.azertag.az/site/video/316059

ANAMA: 57 mina və 378 digər partlayıcı sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 11-17-də icra edilən əməliyyatlara dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən piyadaəleyhinə 32, tankəleyhinə 25 mina və 378 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmin müddətdə 1266,9 hektar ərazi mina və digər partlayıcı sursatlardan təmizlənib.

AZƏRTAC
18 may, 2026

WUF13-də Azərbaycanın təqdim etdiyi şəhərsalma modeli beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılanır – ŞƏRH

Prezident İlham Əliyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində səsləndirdiyi fikirlər müasir şəhərsalma siyasəti, dayanıqlı inkişaf, postmünaqişə dövründə yenidənqurma və "Ağıllı şəhər" konsepsiyalarının tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Yalçın Hacızadə söyləyib.

O bildirib ki, Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı bərpa və yenidənqurma layihələrinə xüsusi diqqət çəkdi. Dövlətimizin başçısı qeyd etdi ki, uzun illər ərzində dağıdılmış şəhər və kəndlərin yenidən qurulması prosesi yalnız infrastrukturun bərpası deyil, eyni zamanda, müasir urbanizasiya prinsiplərinə uyğun yeni yaşayış modelinin formalaşdırılması deməkdir. Bu yanaşma çərçivəsində "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin tətbiqi prioritet istiqamətlərdən biri kimi təqdim olunur.

"WUF13 çərçivəsində Azərbaycanın təqdim etdiyi şəhərsalma modeli beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılanır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə "sıfırdan şəhər quruculuğu" konsepsiyasının tətbiqi, yeni nəqliyyat infrastrukturu, hava limanları, yaşayış kompleksləri və sosial obyektlərin inşası Azərbaycanın regionda həyata keçirdiyi ən iri yenidənqurma proqramlarından biri kimi qiymətləndirilir.

WUF13, həmçinin dövlətlər arasında urbanizasiya siyasəti sahəsində təcrübə mübadiləsinin aparılması, davamlı şəhər idarəçiliyi mexanizmlərinin müzakirəsi və iqlim dəyişikliklərinin şəhərlərə təsirinin qiymətləndirilməsi baxımından mühüm platformadır",- deyə politoloq əlavə edib.

AZƏRTAC
20 may, 2026

Vahid Hacıyev: İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və minatəmizləmə işləri aparılır

Son 4 ildə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. İşğal dövründə yüz minlərlə insan öz doğma yurdlarından didərgin salınıb, yaşayış məskənləri, mədəni və dini abidələr dağıdılıb, bölgənin tarixi və mənəvi kimliyini məhv etməyə cəhd göstərilib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Vahid Hacıyev mayın 20-də BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Dirçəliş və urbisid: Dayanıqlı şəhərsalma və davamlı icmalar" adlı beynəlxalq panel sessiyasında çıxışı zamanı deyib.

O bildirib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma prosesində ən böyük çətinlik mina problemi olub. "ANAMA-nın yorulmaz fəaliyyəti nəticəsində minatəmizləmə işləri sürətləndirilib və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb", - deyə o qeyd edib.

AZƏRTAC
20 may, 2026

Gülay Nəzərova

Ramil Cahangirov: İşğaldan azad edilmiş bölgələrdə yenidənqurmanın ilk günlərindən beynəlxalq şirkətlərlə əməkdaşlığa başlanılıb

İşğaldan azad edilmiş bölgələrdə yenidənqurma üçün qarşıya qoyulan məqsəd bu ərazilərin qlobal şəhərsalma standartlarına uyğun bərpa edilməsidir. Prosesdə iştirak edən istər dövlət qurumları və özəl sektorlar üçün bu, mühüm prinsip idi.

AZƏRTAC xəbər verir ki, bunu Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Şəhərsalmanın yenidən qurulması - Azərbaycan şəhər transformasiyası üçün İnnovasiya Laboratoriyasını necə yaratdı?" mövzulu tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin azad edilmiş ərazilərdə layihə idarəetməsi üzrə şöbə müdiri Ramil Cahangirov deyib.

O qeyd edib ki, yenidənqurmanın ilk günlərindən etibarən beynəlxalq şirkətlərlə əməkdaşlığa başlanılıb.

"İsveçrənin "SA Partners", həmçinin Böyük Britaniyanın "Chapman Taylor" şirkətləri bunlardan biridir. Beləliklə, biz tamamilə dağıdılmış ərazilərin planlaşdırılması ilə məşğul olurduq. Qarşımızda duran çətinliklər şəhərləri düzgün planlaşdırmaq, həmçinin bu ərazilərin və ya şəhərlərin inkişafı üçün gələcək mənzərəni müəyyən etmək idi. Çünki şəhərlərin demək olar ki, hamısı tamamilə dağıdılmışdı", - deyə şöbə müdiri vurğulayıb.

AZƏRTAC
21 may, 2026

WUF13 çərçivəsində ANAMA minatəmizləmənin şəhərlərin bərpasında strateji rolunu müzakirə edib – VİDEO

Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən "Postmünaqişə dövründə şəhərlərin yenidən qurulması: Humanitar minatəmizləmənin mühüm rolu" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan pavilyonunda təşkil olunan tədbir ölkəmizin üzləşdiyi mina problemini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, mina təhlükəsinin bərpa və yenidənqurma prosesinə təsirini vurğulamaq, eləcə də minatəmizləmə sahəsində qlobal əməkdaşlıq və bərpa təcrübələrini müzakirə etmək məqsədilə dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirib.

Tədbirdə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, minatəmizləmə yalnız insanların həyatını xilas edən humanitar fəaliyyət deyil, eyni zamanda, bərpa və yenidənqurmanın əsas təməlidir. Bu fəaliyyət yaşayış evlərinin yenidən inşası, infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi, nəqliyyat şəbəkələrinin inkişafı və iqtisadi fəaliyyətin canlandırılması üçün zəruri şəraiti formalaşdırır. Böyük Qayıdış çərçivəsində minatəmizləmə fəaliyyəti şəhərsalma, yenidənqurma və inkişaf proseslərinə tam şəkildə inteqrasiya edilib.

O vurğulayıb ki, mina təhlükəsi tək Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində bərpa prosesini ləngidir, inkişaf imkanlarını məhdudlaşdırır və əhalinin təhlükəsizliyini risk altında saxlayır. Məhz buna görə də bugünkü platforma xüsusi əhəmiyyət daşıyır. Mina probleminin aradan qaldırılması yalnız milli səylərlə məhdudlaşmır, davamlı beynəlxalq dəstək, tərəfdaşlıq, innovativ yanaşmalar və qabaqcıl təcrübələrin paylaşılmasını zəruri edir.

ANAMA yanında İctimai Şuranın sədr müavini Emil Həsənovun moderatorluq etdiyi panel müzakirələrdə ANAMA-nın İdarə Heyəti sədrinin müavini Samir Poladov, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri, səfir Mariyana Kuyundziç, ADA Universitetinin professoru, Meksikanın Azərbaycandakı keçmiş səfiri Rodrigo Labardini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Layihələrin idarə edilməsi şöbəsinin müdiri Ramil Cahangirov iştirak ediblər.

Şəhərlərin yenidən qurulmasının əsasını təşkil edən minatəmizləmə fəaliyyəti və Azərbaycanın bu sahədə təcrübəsi, münaqişədən sonrakı dövrdə bərpa və yenidənqurmanın dəstəklənməsi üçün beynəlxalq əməkdaşlıq, eləcə də minalardan təmizlənmiş ərazilərdə şəhərsalma və yenidənqurma mövzularında panel müzakirələr keçirilib.

Müzakirələrdə münaqişədənsonrakı dövrdə təhlükəsiz və inklüziv şəhərlərin yenidən qurulmasında humanitar minatəmizləmənin strateji əhəmiyyəti xüsusi vurğulanıb.

AZƏRTAC
22 may, 2026

https://video.azertag.az/site/video/319303

Urbisiddən Dirçəlişə: WUF13-də Qarabağ və Şərqi Zəngəzurda davamlı bərpa, yenidən məskunlaşma və inkişaf barədə danışılıb

WUF13 çərçivəsində "Urbisiddən Dirçəlişə: Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl Qubadlı və Zəngilan rayonlarında davamlı bərpa, yenidən məskunlaşma və inkişaf" mövzusunda panel müzakirə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Cəbrayıl Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və "Chapman Taylor" qrupunun İdarə Heyətinin direktoru Marselina Zielinski çıxış edib.

Müzakirələr zamanı bölgələrdə işğal dövründə törədilmiş dağıntılar, urbisid və ekosid siyasətinin nəticələri diqqətə çatdırılıb, yaşayış məntəqələrinin, tarixi-mədəni və dini abidələrin, həmçinin təbii mühitin məruz qaldığı dağıntılar barədə məlumat verilib.

Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında həyata keçirilən bərpa-quruculuq layihələri, yaşayış məntəqələrinin yenidən salınması, müasir şəhərsalma yanaşmalarının tətbiqi və davamlı inkişaf istiqamətində görülən işlər təqdim olunub.

Qeyd edilib ki, regionda həyata keçirilən layihələr "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun şəkildə icra olunur. Yeni yaşayış məntəqələrində dayanıqlı infrastrukturun qurulması, yaşıl enerji həllərinin tətbiqi, rəqəmsal idarəetmə sistemləri, sosial obyektlərin inşası və əhalinin rahat yaşayışının təmin edilməsi istiqamətində geniş tədbirlər görülür.

Eyni zamanda, təhsil, səhiyyə, nəqliyyat, kommunal xidmətlər və digər sosial infrastruktur layihələrinin həyata keçirildiyi, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və layiqli şəkildə qayıdışının təmin olunmasının əsas prioritetlərdən biri olduğu vurğulanıb.

AZƏRTAC
22 may, 2026

Pərvanə Qafarova

Azərbaycanda minadan zərərçəkənlərin 362-si uşaq və gənclər, 38 nəfəri isə qadınlardır – VİDEO

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ilkin qiymətləndirmələr zamanı bir milyondan çox minanın olduğu aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Pavilyonunda keçirilən "Münaqişədənsonrakı şəhərlərdə yenidənqurma: Humanitar minatəmizləmə fəaliyyətinin kritik rolu" mövzusunda tədbirdə Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov deyib.

O qeyd edib ki, 1991-ci ildən 2020-ci il noyabrın 10-dək mina səbəbindən 2418 nəfər yaralanıb, 530 nəfər həlak olub, klaster bombaları nəticəsində yaralanan və ya dünyasını dəyişənlərin sayı isə 131 nəfərdir.

"2020-ci il noyabrın 10-dan 2025-ci il mayın 22-dək mina səbəbindən 352 nəfər yaralanıb, 73 nəfər həlak olub.

Ümumi mina qurbanlarının sayı 3500-dən çoxdur. Onlardan 362-si uşaqlar və gənclər, 38 nəfəri isə qadınlardır", - deyə Samir Poladov bildirib.

AZƏRTAC
22 may, 2026

https://video.azertag.az/site/video/319191

Anar Quliyev: Azad edilmiş ərazilərdə dünyanın ən iddialı bərpa işlərindən birini həyata keçiririk – VİDEO

Biz işğaldan azad edilmiş ərazilərimizdə dünyanın ən iddialı bərpa işlərindən birini həyata keçiririk.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) rəsmi bağlanışı ilə bağlı keçirilən mətbuat konfransında çıxışı zamanı deyib.

Komitə sədri bildirib ki, keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışını təmin etmək üçün artıq 110-a yaxın şəhər, qəsəbə və kəndin Baş planı təsdiqlənib, digər yaşayış məntəqələri üzrə planlar isə hazırlanmaqdadır.

AZƏRTAC
22 may, 2026

https://video.azertag.az/site/video/319327

Vüqar Süleymanov: Minatəmizləmə fəaliyyəti Böyük Qayıdış Proqramına uyğun icra olunur – VİDEO

Bu gün WUF13 çərçivəsində postmünaqişə dövründə şəhərsalma fəaliyyətində minatəmizləmənin rolu müzakirə edilib. Düşünürəm ki, çox maraqlı diskussiyalar oldu.

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) jurnalistlərə açıqlaması zamanı ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.

O qeyd edib ki, Azərbaycanda Böyük Qayıdış Proqramına uyğun fəaliyyət icra olunur və bütün işlər minatəmizləmədən sonra görülür.

“Hazırda işğaldan azad olunmuş ərazilərdə kəndlərimiz, şəhərlərimiz bərpa olunur, məcburi köçkünlərimiz doğma yurd-yuvalarına qayıdırlar.

2020-ci ilin noyabr ayından bu günədək 270 min hektardan çox ərazi təmizlənib, 250 mindən çox mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib”.

AZƏRTAC
22 may, 2026

https://video.azertag.az/site/video/319239

Ramil Cahangirov: Azad edilmiş ərazilərdə şəhərsalma prosesində təhlükəsizlik bir nömrəli məsələdir – VİDEO

İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma norma və standartlara uyğun aparılır. Lakin bu prosesdə təhlükəsizlik bir nömrəli məsələdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Pavilyonunda keçirilən "Münaqişədənsonrakı şəhərlərdə yenidənqurma: Humanitar minatəmizləmə fəaliyyətinin kritik rolu" mövzusundakı tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azad edilmiş ərazilərdə layihə idarəetməsi üzrə şöbə müdiri Ramil Cahangirov deyib.

O, atılan bütün addımların asayişin və ərazilərin təhlükəsizliyinin təmin olunmasına yönəldiyini, həmçinin bərpa-quruculuq işlərinə təhlükəsizlik tam təmin edildikdən sonra başlanıldığını qeyd edib. "Bu, asan iş deyil. WUF13 çərçivəsində keçirilən müxtəlif panel və sessiyalarda şəhərsalma və minatəmizləmə fəaliyyəti arasında koordinasiyanın olduqca vacib olduğu müzakirə edilib. Əlbəttə ki, bütün proses zamanı ərazinin vəziyyəti ilə bağlı öncədən məsləhətləşmələr aparırıq", - deyə Ramil Cahangirov bildirib.

AZƏRTAC
22 may, 2026

https://video.azertag.az/site/video/319207

Londonda Qarabağın alban xristian irsinə həsr olunan interaktiv platforma təqdim edilib

Londonda Kral İncəsənət Cəmiyyətində (The Royal Society of Arts) Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə hazırlanmış "Həqiqi hekayə: Qarabağda Qafqaz Albaniyasının xristian irsi" adlı interaktiv platformasının təqdimatı keçirilib.

Bu barədə AZƏRTAC-a layihənin rəhbəri, İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyinin sədri, Əməkdar jurnalist Şəlalə Həsənova məlumat verib.

İnteraktiv platformanın təqdimat mərasimində çıxış edən Şəlalə Həsənova bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qafqaz Albaniyasının xristian irsinin qorunması və beynəlxalq ictimaiyyətə çatdırılması ilə bağlı mövqeyindən irəli gələrək, rəhbərlik etdiyi təşkilat işğaldan azad edilmiş ərazilərdə yerləşən alban kilsələrini əhatə edən virtual platforma hazırlayıb.

Layihənin unikallığı ondadır ki, ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərin interaktiv xəritəsində 150 alban məbədi vahid platformada təqdim olunub. Kilsələrin böyük əksəriyyəti barədə onların alban irsinə məxsusluğunu təsdiqləyən tarixi faktlar və mənbələr yerləşdirilib. Platforma tolerant və multikultural Azərbaycanın qədim xristian irsini nümayiş etdirməklə yanaşı, Qarabağdakı qədim kilsələrin erməni deyil, məhz Qafqaz Albaniyasına məxsus dini abidələr olduğunu faktlarla ortaya qoyur.

Vurğulanıb ki, layihənin əsas məqsədi Azərbaycanın zəngin xristian irsini beynəlxalq ictimaiyyətə təqdim etmək, işğaldan azad edilmiş ərazilərdə yerləşən Qafqaz Albaniyasına məxsus dini-mədəni abidələrin mövcudluğunu geniş auditoriyaya çatdırmaq, eyni zamanda, ölkəmizin tarixən formalaşmış tolerantlıq və multikulturalizm dəyərlərini nümayiş etdirməkdir. Bildirilib ki, nadir tarixi mənbələr və faktlar əsasında hazırlanan interaktiv xəritə beynəlxalq ictimaiyyətdə mövcud olan yanlış təsəvvürlərin aradan qaldırılmasına, erməni təbliğatına qarşı faktolojiəsaslı yanaşmanın gücləndirilməsinə xidmət edir.

Platforma erməni dairələrinin və onları dəstəkləyən bəzi Qərb siyasətçilərinin Qarabağda guya erməni dini irsinin məhv edilməsi ilə bağlı iddialarını faktoloji əsaslarla təkzib edir, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə mövcud olan alban xristian irsinin sistemli və əhatəli mənzərəsini təqdim edir.

İnteraktiv xəritədə Xocavənd rayonunda 54, Ağdərədə 26, Laçında 21, Xocalıda 17, Kəlbəcərdə 16, Ağdamda 6, Şuşada 4, Qubadlıda 3, Zəngilanda 2, Füzulidə isə 1 alban kilsəsinin dəqiq coğrafi koordinatları göstərilib. Saytda xəritə ilə yanaşı, Azərbaycanın alban xristian irsinə dair kitablar, elmi məqalələr və tarixi materiallar da yerləşdirilib.

Layihənin rəhbəri Şəlalə Həsənova tədbirin təşkilinə və layihənin həyata keçirilməsinə göstərilən dəstəyə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə, Xarici İşlər Nazirliyinə, Britaniya-Azərbaycan Cəmiyyətinin rəhbəri Fəridə Pənahovaya, London-Azərbaycan Qadınlar Klubunun sədri Sevil Aslanovaya, diaspor nümayəndələrinə və akademik dairələrin təmsilçilərinə təşəkkürünü bildirib.

Təqdimatdan sonra keçirilən müzakirələrdə çıxış edən "CF Eurasia" partiyasının təsisçisi Bota Tore Hopkinson saytın və interaktiv xəritənin ictimai-siyasi əhəmiyyətini xüsusi vurğulayıb. O, platformanı Azərbaycanın dini-mədəni irsinin beynəlxalq ictimaiyyətə daha dolğun təqdim olunmasına mühüm töhfə verən layihə kimi yüksək qiymətləndirib.

Tədbirdə Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Günel Səlimova da iştirak edib.

AZƏRTAC
23 may, 2026

Ötən həftə 78 mina və 416 digər partlayıcı sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 18-24-də icra edilən əməliyyatlara dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən piyadaəleyhinə 45, tankəleyhinə 33 mina və 416 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmin müddətdə 2092 hektar ərazi mina və digər partlayıcı sursatlardan təmizlənib.

AZƏRTAC
25 may, 2026

Şərqi Zəngəzurda meyvə bağlarında monitorinq aparılıb

Milli Monitorinq Planına uyğun olaraq, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Şərqi Zəngəzur regional bölməsinin əməkdaşları Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarındakı meyvə bağlarında fitosanitar monitorinq aparıblar.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, monitorinq zamanı fitosanitar müfəttişlər şaftalı, ərik və nektarin bağlarına baxış keçirib, qəhvəyi mərmər bağacığına qarşı feremon tələlər asıblar. Həmçinin meyvə bağlarında zərərvericilərin təyini və torpaqda olan pestisidlərin qalıq miqdarının, zərərli orqanizmlərin müəyyənləşdirilməsi məqsədilə nümunələr götürülərək Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim edilib.

Eyni zamanda, təsərrüfatlarda bitki mühafizə vasitələrinin istifadəsi, saxlanılması, daşınması zamanı qanunvericiliyin tələblərinə və təhlükəsizlik qaydalarına əməl olunması barədə sahibkarlarla maarifləndirici söhbətlər aparılıb.

AZƏRTAC
25 may, 2026

Ədliyyə naziri Zəngilanda vətəndaşların müraciətlərini dinləyəcək

Ədliyyə naziri Fərid Əhmədov iyunun 5-də Zəngilan rayonunun Ağalı kəndində Zəngilan, Cəbrayıl və Qubadlı rayon sakinlərini qəbul edəcək.

Bu barədə AZƏRTAC-a Ədliyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, vətəndaşlar nazirliyin fəaliyyət istiqamətlərinə dair məsələlərlə bağlı iyunun 4-dək yalnız rəsmi iş günləri və saatları ərzində Ədliyyə Nazirliyinin (+994 12) 510 10 01 (daxili nömrə: 10941) nömrəli telefonu vasitəsilə müraciət edərək qəbula yazıla bilərlər.

Həmçinin qebul@justice.gov.az e-poçt ünvanı, eləcə də Nazirliyin rəsmi veb-saytında "Elektron xidmətlər" bölməsində "Vətəndaşların ədliyyə orqanlarında qəbula yazılması" xidməti vasitəsilə də qəbula yazılmaq mümkündür.

Qəbula gələn vətəndaşlardan əvvəlcədən qeydiyyatdan keçmələri və özləri ilə şəxsiyyət vəsiqəsini gətirmələri xahiş olunur.

Qəbula yazılan şəxslərə qəbulun keçiriləcəyi ünvan və vaxt barədə əvvəlcədən məlumat veriləcək.

AZƏRTAC
26 may, 2026

Azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə dördüncü investisiya müsabiqəsi elan olunur

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə dördüncü investisiya müsabiqəsi üzrə müraciətlərin (ərizələrin) qəbuluna başlanılır.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, torpaqların müsabiqə ilə sahibkarlıq subyektlərinə icarəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların sahibkarlıq subyektlərinə icarəyə verilməsi üzrə investisiya müsabiqələrinin keçirilməsi Qaydaları"na əsasən həyata keçiriləcək.

Müsabiqə şərtləri ilə buradan tanış ola bilərsiniz.

AZƏRTAC
26 may, 2026

“QDF-in dostları” platforması çərçivəsində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının investisiya potensialı təqdim edilib

Qarabağ Dirçəliş Fondu (QDF) və Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə işgüzar görüş keçirilib.

QDF-dən AZƏRTAC-a verilən məlumata görə, “Qarabağ Dirçəliş Fondunun Dostları” platforması çərçivəsində keçirilən tədbirdə dövlət rəsmiləri, Fondun donor və tərəfdaşları, ölkənin aparıcı şirkətlərinin rəhbər şəxsləri və nümayəndələri iştirak ediblər.

“Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında investisiya potensialı və biznes fürsətləri” mövzusunda təşkil olunan görüşün məqsədi həmin rayonların sosial-iqtisadi mənzərəsini, prioritet sektorlar üzrə yaranan investisiya imkanlarını investorlara ətraflı şəkildə təqdim etmək olub.

Görüşdə regiona yerli kapitalın cəlb olunmasını təşviq etmək, dövlət-özəl sektor dialoqunu gücləndirmək və regionun iqtisadi inkişafının əsas hərəkətverici qüvvələrini nümayiş etdirmək kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işlərinin sürətlə davam etdiyini vurğulayıb. Azərbaycanın bu cür nəhəng layihələri öz imkanları hesabına reallaşdırdığını qeyd edən İdarə Heyətinin sədri ölkəmizdə fəaliyyət göstərən yerli şirkətlərin bərpa prosesindəki mühüm rolunu xüsusilə qeyd edib.

Rəhman Hacıyev donor və tərəfdaşlara göstərdikləri dəstəyə görə təşəkkür edib, hər bir töhfənin Qarabağın dirçəlişinə birbaşa xidmət etdiyini vurğulayıb.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılması regionun sürətli dirçəlişində həlledici rol oynayır. Hazırda həmin rayonlarda həyata keçirilən irimiqyaslı infrastruktur layihələri və yaradılan əlverişli biznes mühiti sahibkarlar üçün geniş imkanlar açır.

Xüsusi nümayəndə, həmçinin regionda formalaşan yeni logistik imkanların, xüsusilə “Zəngəzur dəhlizi”nin və yeni tikilən nəqliyyat qovşaqlarının həm yerli, həm də beynəlxalq bazarlara çıxış baxımından strateji əhəmiyyətini vurğulayıb. O, bütün iş adamlarını bu tarixi quruculuq missiyasına qoşulmağa və təqdim olunan biznes fürsətlərindən yararlanmağa dəvət edib.

Tədbirdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında aparılan bərpa-quruculuq layihələrinə, eyni zamanda, Qarabağ Dirçəliş Fondunun sifarişi ilə tanınmış britaniyalı yazıçı Qrem Vilson tərəfindən qələmə alınan “Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi” innovativ kitab layihəsinə həsr olunan videoçarxlar nümayiş olunub.

Sonra Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qeyd olunan bölgədə ümumi investisiya imkanları, dövlət dəstəyi mexanizmləri və güzəştlər, tikinti sektorunun imkanları, kənd təsərrüfatı layihələrinin potensialı, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni ekoloji modelin yaradılması və regionun turizm potensialı mövzuları ətrafında geniş təqdimatlarla çıxış ediblər.

Təqdimatlardan sonra tədbir sual-cavab sessiyası və müzakirələrlə davam edib.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində fəaliyyət göstərən UNEC Dizayn Məktəbinin tələbələrinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinə həsr olunan xüsusi sərgisi təşkil olunub. Təqdim olunan layihələr tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

“Qarabağ Dirçəliş Fondunun Dostları” platforması çərçivəsində işğaldan azad edilmiş digər rayonların da investisiya potensialına həsr olunan analoji görüşlərin keçirilməsi nəzərdə tutulub.

Eyni zamanda, həmin görüşlərin davamı olaraq investorların Qarabağ və Şərqi Zəngəzurda görülən işlər və investisiya imkanları ilə tanış olmaq məqsədilə bölgəyə işgüzar səfərlərin təşkil olunması da planlaşdırılır.

AZƏRTAC
26 may, 2026

Kəndlərin inkişafı, bölgələrdə yaşayış səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir – ŞƏRH

Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti ölkənin bir çox sahələri kimi kənd təsərrüfatına da ciddi zərbə vurmuşdu. Uzun illər işğal altında qalan ərazilərdə əkin sahələri yararsız vəziyyətə düşmüş, bağçılıq və heyvandarlıq zəifləmış, suvarma sistemləri dağıdılmışdı. Bunun nəticəsində kənd təsərrüfatının inkişaf tempi aşağı düşmüş, regionların iqtisadi potensialından tam istifadə mümkün olmamışdı.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Səbinə Xasayeva söyləyib.

O bildirib ki, Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra isə azad edilmiş torpaqlarda geniş quruculuq və bərpa işlərinə başlanılması kənd təsərrüfatının inkişafı üçün də yeni imkanlar yaratdı. Aparılan yenidənqurma işləri yolların, enerji və su təminatı sistemlərinin bərpasını əhatə etməklə yanaşı, kənd təsərrüfatı infrastrukturunun yenilənməsinə də xidmət edir. Bu proses regionların sosial-iqtisadi dirçəlişinə mühüm töhfə verir.

“Son illərdə bölgələrdə həyata keçirilən infrastruktur layihələri kənd təsərrüfatının inkişafında mühüm rol oynayıb. Yeni yolların çəkilməsi, su anbarlarının və kanalların tikilməsi, enerji təminatının gücləndirilməsi kənd təsərrüfatı məhsullarının istehsalını artırıb və fermerlərin fəaliyyətini daha da asanlaşdırıb. Eyni zamanda, müxtəlif dövlət proqramları çərçivəsində ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına dəstək göstərilməsi ölkənin aqrar potensialının genişlənməsinə şərait yaradıb”, - deyə S.Xasayeva vurğulayıb.

Deputatın sözlərinə görə, kəndlərin inkişafı və bölgələrdə yaşayış səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqət çəkir. Məqsəd insanların doğma yurdlarında yaşayıb işləməsi, kənd təsərrüfatı və digər ənənəvi fəaliyyət sahələri ilə məşğul olması üçün əlverişli şərait formalaşdırmaqdır. Bu baxımdan regionlarda sosial infrastrukturun yaxşılaşdırılması, xidmət sektorunun inkişaf etdirilməsi və yeni iş yerlərinin yaradılması mühüm əhəmiyyət daşıyır.

“Azad olunmuş ərazilərdə aqroparkların yaradılması, müasir suvarma sistemlərinin tətbiqi və torpaqlardan səmərəli istifadənin təşviqi kənd təsərrüfatının gələcək inkişaf perspektivlərini daha da gücləndirir. Yeni kanalların və su layihələrinin həyata keçirilməsi minlərlə hektar torpağın yenidən əkin dövriyyəsinə qaytarılmasına imkan verəcək. Bu isə məhsuldarlığın artmasına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm təsir göstərəcək.

Ümumilikdə isə həyata keçirilən tədbirlər Azərbaycanda kənd təsərrüfatının davamlı inkişafına, regionların iqtisadi gücünün artmasına və kənd yerlərində həyat səviyyəsinin yüksəlməsinə xidmət edir”, - deyə o əlavə edib.

AZƏRTAC
26 may, 2026

Agentlik: Azad edilmiş ərazilərə köçürülən sakinlərdən 10600-dək şəxsin məşğulluğu təmin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad edilmiş ərazilərə köçürülmüş sakinlərin məşğulluq tədbirləri ilə əhatə olunması işlərini davam etdirir.

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, Böyük Qayıdış Proqramı çərçivəsində doğma yurdlarına köçürülmüş sakinlərdən artıq 10600-dək şəxsin məşğulluğu təmin edilib.

“Onlardan 881 şəxs üçün özünüməşğulluq proqramı üzrə kiçik ailə təsərrüfatları yaradılıb. Habelə 505 nəfər müxtəlif istiqamətlər üzrə peşə hazırlığı kurslarına cəlb edilib. Kursları uğurla başa vurmuş şəxslərin işlə təminatına dəstək göstərilib”, - deyə qurumun yaydığı məlumatda bildirilir.

AZƏRTAC
28 may, 2026

Aydın Hüseynov: İşğaldan azad olunmuş ərazilərin aqrar potensialı Azərbaycanın iqtisadi inkişafına yeni töhfələr verəcək

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları zəngin təbii ehtiyatları, münbit torpaqları, əlverişli iqlim şəraiti və geniş su resursları ilə Azərbaycanın kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq strateji ərazilərdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov səsləndirib. Deputat bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri nəticəsində Qarabağ və Şərqi Zəngəzur qısa müddətdə ölkənin ən böyük investisiya və inkişaf məkanlarından birinə çevrilib. Onun sözlərinə görə, regionda yaradılan müasir infrastruktur, tikilən yollar, enerji və kommunikasiya xətləri, həmçinin həyata keçirilən sosial layihələr kənd təsərrüfatının inkişafı üçün möhkəm zəmin formalaşdırır: "Uzun illər işğal altında qalmış torpaqların yenidən iqtisadi dövriyyəyə qaytarılması Azərbaycanın aqrar sektorunun genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qarabağ və Şərqi Zəngəzurda yüz minlərlə hektar əkinəyararlı torpaq sahəsi mövcuddur ki, bu da kənd təsərrüfatı istehsalının əhəmiyyətli dərəcədə artırılmasına imkan verir. Həmin ərazilərdə taxılçılıq, üzümçülük, bağçılıq, tərəvəzçilik, yemçilik, arıçılıq və heyvandarlıq kimi sahələrin inkişafı üçün əlverişli şərait mövcuddur".

Deputat vurğulayıb ki, xüsusilə Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarının təbii otlaq və yaylaq sahələri heyvandarlığın inkişafı üçün böyük imkanlar yaradır: "Bu ərazilərdə yüksək məhsuldarlığa malik heyvandarlıq təsərrüfatlarının yaradılması həm daxili bazarın keyfiyyətli ət və süd məhsulları ilə təmin olunmasına, həm də ixrac imkanlarının genişlənməsinə şərait yaradacaq".

Onun sözlərinə görə, Qarabağ bölgəsi tarixən Azərbaycanda üzümçülük və bağçılığın inkişaf etdiyi əsas mərkəzlərdən biri olub: "Hazırda həmin ənənələrin yenidən bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Müasir aqrotexniki yanaşmaların tətbiqi ilə burada yüksək məhsuldarlığa malik meyvə bağlarının və üzüm plantasiyalarının salınması nəzərdə tutulur. Bu isə həm kənd təsərrüfatı məhsullarının istehsalının artmasına, həm də emal sənayesinin inkişafına təkan verəcək".

Aydın Hüseynov bildirib ki, işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonasının yaradılması aqrar sektorun inkişafı üçün də mühüm üstünlüklər yaradır: "Günəş, külək və su enerjisi potensialından istifadə etməklə kənd təsərrüfatı istehsalında enerji təminatının daha səmərəli təşkili mümkün olacaq. Bu yanaşma həm istehsal xərclərinin azalmasına, həm də ekoloji dayanıqlılığın təmin edilməsinə xidmət edir. Bölgədə tətbiq olunan "Ağıllı kənd" konsepsiyası kənd təsərrüfatında rəqəmsal texnologiyaların geniş tətbiqinə imkan yaradır. Ağıllı suvarma sistemləri, peyk müşahidələri, elektron idarəetmə mexanizmləri və innovativ aqrotexnologiyalar məhsuldarlığın artırılmasına, su və digər resurslardan səmərəli istifadəyə şərait yaradır. Bu isə Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın ən müasir kənd təsərrüfatı zonalarından birinə çevriləcəyini göstərir".

A.Hüseynovun sözlərinə görə, bölgədə aqroparkların, logistika mərkəzlərinin və kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması əlavə dəyər zəncirinin formalaşmasına xidmət edəcək: "İstehsaldan satışa qədər bütün mərhələlərin vahid sistem üzrə təşkili fermerlərin gəlirlərinin artmasına və məhsulların rəqabət qabiliyyətinin yüksəlməsinə imkan verəcək. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı məcburi köçkünlərin doğma torpaqlarına qayıdış prosesini də sürətləndirəcək. Yeni iş yerlərinin açılması, müasir yaşayış məntəqələrinin qurulması və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsi bölgədə dayanıqlı məskunlaşmanın təmin edilməsində mühüm rol oynayacaq. Bu proses həm də regionların sosial-iqtisadi inkişafına, əhalinin rifah səviyyəsinin yüksəlməsinə və ölkənin ümumi iqtisadi potensialının güclənməsinə töhfə verəcək".

Aydın Hüseynov əlavə edib ki, Qarabağ və Şərqi Zəngəzurun aqrar resurslarının inkişaf etdirilməsi Azərbaycanın ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə, qeyri-neft sektorunun inkişafına və ixrac imkanlarının genişlənməsinə mühüm təsir göstərəcək: "Dövlət tərəfindən həyata keçirilən

məqsədyönlü siyasət nəticəsində bu ərazilər yaxın illərdə regionun ən müasir və məhsuldar kənd təsərrüfatı mərkəzlərindən birinə çevriləcək, Azərbaycanın dayanıqlı inkişaf strategiyasına mühüm töhfələr verəcək".

AZƏRTAC
1 iyun, 2026

Ötən ay 284 mina və 1537 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2026-cı ilin may ayında minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 173, tankəleyhinə 111 mina və 1537 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 7520,2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
1 iyun, 2026

Məcburi köçkünlərlə bağlı sosial dəstək mexanizmləri mərhələli şəkildə yeni modelə keçirilir
TƏHLİL

Azərbaycan dövləti Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsini hər zaman öz siyasətinin prioritet istiqamətlərindən biri hesab edib. Ötən illər ərzində bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ölkə rəhbərliyinin tapşırığı ilə yeni qəsəbələr və çoxmərtəbəli yaşayış binaları salınıb. Bununla yanaşı, məcburi köçkünlərin məşğulluğunun artırılması, təhsil və səhiyyə xidmətlərinə əlçatanlığının təmin edilməsi üçün ardıcıl dövlət proqramları icra olunub. Dövlət tərəfindən müvafiq müavinətlərin və kommunal xidmət güzəştlərinin verilməsi bu vətəndaşların maddi rifahına mühüm dəstək olub.

Humanitar böhran və dövlətin strateji prioritetləri

Məcburi köçkünlərin üzləşdiyi sosial, iqtisadi və digər humanitar problemlərin sistemli şəkildə həlli istiqamətində dövlət tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilib və möhkəm qanunvericilik bazası formalaşdırılıb. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2004-2019-cu illərdə 75 fərman və sərəncam imzalanıb, Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam verilib, Milli Məclis tərəfindən 11 Qanun qəbul edilib. Bu hüquqi bazanın mərkəzində dayanan əsas strateji sənədlərdən biri də Azərbaycan Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" olub. Bu proqram sonrakı illərdə icra olunacaq genişmiqyaslı layihələrin yol xəritəsini müəyyən edib.

Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin ən böyük maliyyə tutumlu istiqaməti olub. Belə ki, 1990-cı illərin ağır mirası olan çadır düşərgələrinin və digər yararsız sığınacaqların mərhələli şəkildə ləğvi humanitar fəaliyyətin əsas hədəfinə çevrilmişdi. 2007-ci ildə ölkə ərazisində mövcud olan 12 çadır düşərgəsi və dəmir yolu üzərindəki yük vaqonlarından ibarət yaşayış məntəqələri tamamilə ləğv edildi. Müvəqqəti xarakter daşıyan 16 fin tipli qəsəbədən sonuncusu isə 2016-cı ildə bütövlüklə aradan qaldırıldı.

Məcburi köçkünlərin mənzil təminatının köklü həlli məqsədilə ölkə rəhbərliyinin tapşırığı ilə 121 yeni qəsəbə və hündürmərtəbəli binalardan ibarət müasir yaşayış kompleksi tikilərək istifadəyə verildi. Görülən bu genişmiqyaslı tikinti-infrastruktur işləri nəticəsində 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox vətəndaşın mənzil-məişət şəraiti tamamilə yeniləndi və müasirləşdirildi.

Dövlət dəstəyi tədbirləri təkcə mənzil təminatı ilə məhdudlaşmadı, vətəndaşların gündəlik ehtiyaclarının qarşılanması üçün vahid aylıq müavinət də daxil olmaqla, çoxşaxəli sosial yardım alətləri tətbiq edildi. Xüsusilə insan kapitalının qorunması, məcburi köçkün ailələrindən olan gənclərin təhsil imkanlarının genişləndirilməsi diqqət mərkəzində saxlanıldı. Bu sahədə tətbiq edilən güzəştlər gənclərin ali təhsildən kənarda qalmasının qarşısını aldı. Buna ən bariz nümunə kimi, 2025-2026-cı tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə ödənişli əsaslarla yeni qəbul olunmuş 3923 məcburi köçkün statuslu tələbənin təhsil xərclərinin tamamilə dövlət büdcəsi hesabına qarşılanmasını göstərmək olar.

Postmünaqişə reallıqları və Böyük Qayıdış proqramı

Vətən müharibəsində qazanılan şanlı Zəfərdən sonra isə bu dövlət qayğısı, sadəcə, forma dəyişməyib, həm də mahiyyətcə daha böyük və keyfiyyətcə tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Hazırda dövlətin ən mühüm strateji prioritetlərindən biri olan Böyük Qayıdış dövlət proqramı çərçivəsində, işğaldan azad edilmiş ərazilərdə dünyanın ən müasir şəhərsalma standartlarına cavab verən, yaşıl enerji zonası elan edilmiş "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyaları sürətlə reallığa çevrilir. Bu, Böyük

Qayıdışın ən mühüm və qürurverici tərəfi isə illərdir çiyinlərdə daşınan o ağır yükün – "məcburi köçkün" ifadəsinin artıq tarixə qovuşmasıdır. Çünki 30 il boyunca düşmən tapdağı altında inildəyən yurd yerlərimiz artıq azad nəfəs alır, viran qoyulmuş müqəddəs torpaqlarımız milli memarlıq üslubunda yenidən dirçəlir. Uzunmüddətli yurd həsrətinə son qoyaraq öz ata-baba ocaqlarına ləyaqətlə və təhlükəsiz şəraitdə qayıdan bu ailələrin hər biri üçün dövlətin bütün inzibati, texniki və maliyyə resursları maksimum səviyyədə səfərbər edilib.

Doğma yurduna ayaq basan hər bir vətəndaşın təkcə mənzil təminatı diqqətdə saxlanılmır, həm də yeni iş yerləri, geniş istehsalat və kənd təsərrüfatı potensialı yaradılır. Məhz bu tarixi Qələbə və torpaqlara qayıdış reallığı onu şərtləndirir ki, keçmiş məcburi köçkün statusu və indiyədək müvəqqəti xarakter daşımış xüsusi sosial dəstək mexanizmləri yeni dövrün tələblərinə, vətəndaşın mülkiyyətçi kimi güclənməsi fəlsəfəsinə uyğun olaraq müvafiq qanunvericilik çərçivəsində yenidən, daha mükəmməl formada tənzimlənsin.

Beləliklə, Azərbaycan dövləti öz vətəndaşını həm çətin sınaq dövründə tək qoymadı, həm də bu gün onların öz doğma yurdlarında firavan yaşayışını ən yüksək səviyyədə təmin etməkdədir. Dədə-baba yurdlarına qayıdan vətəndaşlar dövlət tərəfindən ən müasir standartlara cavab verən hazır yaşayış sahələri (mənzillər və fərdi evlər) ilə təmin olunurlar. Paralel olaraq, onların rahat, təhlükəsiz yaşayışı üçün zəruri olan bütün infrastruktur – yollar, elektrik, su, qaz xətləri, müasir xəstəxanalar, məktəblər və bağçalar sıfırdan yaradılır. İnfrastruktur layihələri ilə yanaşı, insanların yeni iqtisadi mühitə adaptasiyasını təmin etmək üçün məşğulluq proqramları və sosial xidmətlər də əlaqəli şəkildə həyata keçirilir. Ən əsası, vətəndaşların yeni yaşayış şəraitinə tam və rəvan uyğunlaşmasına dəstək göstərmək məqsədilə sosial müdafiə tədbirləri keçid dövründə də kəsilmədən, ardıcıl olaraq davam etdirilir.

Yeni hüquqi tənzimləmələr və keçid dövrünün idarə edilməsi

Azərbaycan dövlətinin sosial siyasət prioritetlərinə və mövcud qanunvericilik çərçivəsinə uyğun olaraq, işğal dövrünün başa çatması ilə əlaqədar məcburi köçkün statusu və ona tətbiq olunan xüsusi sosial mexanizmlər yenidən tənzimlənir. Yeni hüquqi qaydalara əsasən, işğaldan azad edilmiş ərazilərə köçürülən, habelə təklif olunan köçürülmədən imtina edən şəxslərin məcburi köçkün statusu həmin andan etibarən dəyişir və itirilmiş hesab olunur. Sosial müdafiə tədbirləri köçürülən şəxslər və köçürülmə təklifini qəbul etməyən şəxslər üçün statusun itirildiyi tarixdən sonra 3 il müddətində davam edir. Qanun qüvvəyə minənədək köçürülmüş şəxslər üçün bu 3 illik müddət köçürüldükləri tarixdən hesablanır. Məcburi köçkünlər işğaldan azad edilmiş ərazilərdə ev və ya mənzillə təmin edilir və həmin yaşayış sahəsi dərhal onların mülkiyyətinə verilir. Təhsil alan şəxslər üçün təhsil haqlarının dövlət büdcəsi hesabına ödənilməsi təhsil müddətinin sonunadək davam etdirilir. Dövlətin sosial müdafiə sistemi tək bir statusa bağlı deyil, çoxsəviyyəli mexanizmlərdən ibarətdir. Buraya ünvanlı sosial yardım, məşğulluq proqramları, mənzil təminatı, təhsil və səhiyyə dəstəyi, reabilitasiya və sosial inteqrasiya proqramları da daxildir.

Dövlət tərəfindən məcburi köçkün ailələrinə göstərilən sosial dəstək siyasəti davam etdirilir. Ünvanlı sosial yardım, məşğulluq proqramları, təhsil və digər məcburi köçkün statusuna bağlı olmayan sosial müdafiə mexanizmləri qüvvədə qalır.

Bu islahatlarla dövlətin sosial siyasətində müvəqqəti rejimdən dayanıqlı inteqrasiya modelinə keçid reallaşır. Dövlətin sosial müdafiə sistemi tək bir statusla məhdudlaşmır və çoxsəviyyəli mexanizmlərə əsaslanır. Bu səbəbdən, Böyük Qayıdış çərçivəsində vətəndaşların rifahı və sosial təminatı yenə də prioritet istiqamət olaraq qalır - statusun itirilməsindən asılı olmayaraq dövlətin məşğulluq proqramları, ünvanlı sosial yardım, mənzil təminatı, təhsil, səhiyyə dəstəyi, reabilitasiya və sosial-iqtisadi inteqrasiya mexanizmləri vasitəsilə ailələrə göstərilən genişmiqyaslı dəstək tədbirləri davamlı şəkildə qüvvədə saxlanılır.

Humanitar idarəçilikdən dayanıqlı inkişafa doğru

Məcburi köçkünlərlə bağlı həyata keçirilən bu hüquqi və sosial islahatlar Azərbaycanın postmünaqişə dövründə qarşıya qoyduğu strateji hədəflərin tərkib hissəsidir. Dövlətin sosial dəstək mexanizmlərinin yeni mərhələnin çağırışlarına uyğunlaşdırılması humanitar böhran idarəçiliyindən dayanıqlı və müasir inkişaf modelinə keçidin ən bariz göstəricisidir. Uzun illər ərzində məcburi köçkünlərin müdafiəsinə yönəlmiş xüsusi mexanizmlər öz tarixi missiyasını yerinə yetirərək, bu gün yeni reallıqlara uyğun şəkildə yenidən formalaşdırılır. Artıq əsas məqsəd vətəndaşların müvəqqəti məskunlaşma şəraitində deyil, öz doğma torpaqlarında dayanıqlı və firavan həyat qurmalarını təmin etməkdir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan müasir yaşayış məntəqələri, geniş sosial infrastruktur və məşğulluq imkanları bu məqsədin uğurla həyata keçirildiyini göstərir. Eyni zamanda, keçid dövründə sosial müdafiə tədbirlərinin davam etdirilməsi dövlətin vətəndaş amilinə verdiyi yüksək dəyərin təzahürüdür. Bu yeni strateji mərhələdə doğma yurdlarına köçən vətəndaşların müasir standartlara cavab verən daimi yaşayış sahələri ilə tam təmin olunması dövlət siyasətinin mərkəzində dayanır. Beləliklə, Böyük Qayıdış yalnız insanların doğma yurdlarına qayıdışı deyil, həm də onların sosial rifahının, təhlükəsizliyinin və inkişaf perspektivlərinin təmin olunması deməkdir. Bu proses Azərbaycanın sosial dövlət modelinin gücünü və vətəndaşına göstərdiyi ardıcıl qayğını bir daha nümayiş etdirir.

AZƏRTAC
3 iyun, 2026

Vüqar Bayramov: 2021-2025-ci illərdə keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 1 milyard 654 milyon manat ayrılıb

Vətən müharibəsində qazanılan Zəfərdən sonra keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün dövlət büdcəsindən 1 milyard 654 milyon manat ayrılıb. Belə ki, bu istiqamətə dövlət büdcəsindən 2021-ci ildə 354.4 milyon manat, 2022-ci ildə 364,9 milyon manat , 2023-cü ildə 353.9 milyon manat, 2024-cü ildə 329,2 milyon manat, 2025-ci ildə isə 252 milyon manat xərclənib. 2026-cı ildə isə daha 280 milyon manatın ayrılması həyata keçirilməkdədir.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında deputat Vüqar Bayramov deyib.

O bildirib ki, yalnız Dövlət Neft Fondundan qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması üçün 2 milyard 702 milyon manat vəsait ayrılıb. Bu Neft Fondunun büdcə transferlərindən kənar ayırdığı 13 maliyyələşmə istiqaməti üzrə ən böyük xərc maddəsidir.

Deputat qeyd edib ki, bütün bunlarla yanaşı, dövlət büdcəsindən işğaldan azad olunan ərazilərimizin bərpasına 2026-cı il öhdəliyi nəzərə alınmaqla 25 milyard manatdan çox vəsait ayrılır. Vətən müharibəsindən sonra keçən qısa müddətdə isə işğaldan azad olunan ərazilərimizdə 85 mindən çox vətəndaşımızın məskunlaşması, işləməsi və təhsil alması isə Azərbaycanın gücünü bir daha təsdiq edir.

AZƏRTAC
3 iyun, 2026

Mənzil Məcəlləsində dəyişiklik: İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaradılır – VİDEO

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair 1-ci Dövlət Proqramı”nın icrası ilə bağlı möhkəm hüquqi baza yaradılıb, qanunvericilikdə müvafiq dəyişikliklər edilərək Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni müavinət növü təsis edilib, məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunub.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında komitə sədri Musa Quliyev deyib.

O bildirib ki, bu gün müzakirəyə çıxarılan Mənzil Məcəlləyə, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara təklif edilən dəyişikliklər də məhz bu sahədə görülən işlərin hüquqi bazasının təkmilləşdirilməsi, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusunun itirilməsi ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Belə ki, Mənzil Məcəlləsinə ediləcək dəyişiklik nəticəsində yeni institut – İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaranacaq və bu fonda daxil olan yaşayış məntəqələri məcburi köçkünlərin köçürülməsi və bu sahələrin onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq.

Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, məcburi köçkün statusunun itirilməsi halları da konkretləşdiriləcək. Yeni təklifə əsasən, şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcək. Həmçinin sözügedən qanuna təklif olunan dəyişikliyə görə, şəxs dövlət tərəfindən təklif olunan həmin yaşayış yerindən imtina etdikdə məcburi köçkün statusunu itirəcək.

Komitə sədri qeyd edib ki, layihədə sosial müdafiə tədbirlərinin müddətinə də aydınlıq gətirilir. Mövcud üçillik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcək.

Bundan başqa, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun 5-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəyişdirilir. Yeni qaydalara əsasən, dövlət öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək. Bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaq.

AZƏRTAC
3 iyun, 2026

https://video.azertag.az/site/video/321415

Böyük Qayıdış Azərbaycan tarixinin mühüm hadisələrindən biridir TƏHLİL

1990-cı illərin əvvəllərində Azərbaycan torpaqları işğal olunanda yüz minlərlə azərbaycanlı öz doğma yurdundan, kəndindən, şəhərindən və evindən didərgin düşdü. Lakin heç kim inamını sona qədər itirmədi: biz qayıdacağıq dedilər. Fiziki və mənəvi qayıdış artıq başlayıb, insanlar doğma torpaqlarına dönürlər. Bu baxımdan Milli Məclisdə müzakirəyə çıxarılan Qanun layihəsi dövlət siyasətinin yeni hüquqi mərhələsini təşkil edir - məcburi köçkünlükdən yeni statusa keçid baş verir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc söyləyib.

Böyük Qayıdış: Dünya tarixində unikal Azərbaycan nümunəsi

O bildirib ki, dünyada qaçqınlıq və məcburi köçkünlük problemi hazırda bəşəriyyətin ən ağır humanitar böhranlarından biridir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatlarına görə, dünyada məcburi köçkün, qaçqın və sığınacaq axtaran insanların sayı 123 milyon nəfər təşkil edir. Tarixdə çox xalqlar öz torpaqlarından didərgin salınıb, lakin geri dönə bilməyiblər. Bir əsrdə dörd dəfə deportasiya və qaçqınlıq yaşayan Azərbaycan xalqı dövlətin gücü, ordumuzun qələbəsi və millətimizin iradəsi hesabına öz yurduna kütləvi şəkildə qayıdır.

Müvəqqəti statusdan daimi mülkiyyət hüququna keçid

“Qanun layihəsinin mahiyyətini düzgün izah etmək Böyük Vətən quruculuğunun yeni ideoloji təməllərini və hədəflərini möhkəm əsaslar üzərində qurmaq deməkdir. Dövlət torpaqlarından və hüquqlarından məhrum edilən vətəndaşlarını doğma yurdlarının və evinin tam hüquqlu sahibinə, mülkiyyətçisinə çevirir. Hər bir azərbaycanlı üçün qürurlu hadisə iki yüz illik qaçqınlıq və köçkünlük dalğasına son qoyulmasıdır. İnsan müvəqqəti statusdan daimi hüquqa, müvəqqəti məskunlaşmadan daimi mülkiyyət hüququna keçir. Dövlət himayəsindən evinin tam hüquqlu sahibi olur.

İndiyə qədər mövcud olan hüquqi çərçivədə məcburi köçkünlər dövlət tərəfindən verilən yaşayış sahələrindən müvəqqəti istifadə edirdilər. Qanunvericilikdə də normalar “müvəqqəti məskunlaşma”, “müvəqqəti fond”, “kirayə müqaviləsi” kimi anlayışlarla ifadə olunurdu. Yeni qanunda isə “İşğaldan Azad Edilən Ərazilərdə Daimi Məskunlaşdırma Fondu” yaradılır. İndiyədk qüvvədə olan redaksiyada köçkünlərin hüquqlarını məhdudlaşdıran norma mövcud idi - onlara verilən mənzillər və evlər xüsusi təyinatlı yaşayış fonduna aid idi və həmin sahələr özgəninkiləşdirilə, icarəyə və kirayəyə verilə bilməzdi. Yeni qurumun yaradılmasının məqsədi ondan ibarətdir ki, vətəndaşa verilən yaşayış sahəsi artıq müvəqqəti deyil, daimi hüquqi əsas daşıyır. İnsan öz evinə qayıdır, açarını təntənəli qəbul edir, evinin tam mülkiyyətçisinə çevrilir.

Göründüyü kimi, yeni tarixi qanun üç məsələni həll edir. Birincisi, mülkiyyət hüququ, dövlət yaşayış yeri verməklə kifayətlənmir, vətəndaşın tam hüquqlu mülkiyyətçi kimi statusunu bərpa edir. İkincisi, daimilik prinsipi: Qayıdış müvəqqəti yerləşmə yox, daimi və dayanıqlı məskunlaşmadır. Üçüncüsü, sosial müdafiənin davamlılığı: Sosial müdafiə tədbirləri 3 il müddətində davam etdirilir. Yəni dövlət vətəndaşı yeni mərhələdə də tək qoymur”, - deyə Z.Oruc vurğulayıb.

Böyük Qayıdış: Yeni dövrün milli ideyası

Komitə sədrinin sözlərinə görə, qayıdış yalnız doğma yurdlarına dönən insanlara aid, yaxud müvafiq dövlət komitəsinin işi ilə məhdudlaşmır. Vətən müharibəsi kimi Böyük Qayıdış da bütöv millətimizə məxsus olan mühüm dövlətçilik hadisəsidir. Məcburi köçkün ailə məfhumunu tamhüquqlu vətəndaşlığın

əvəzləməsi yeni dövlət və millət quruculuğudur. Prezident İlham Əliyev bəyan etmişdi ki, biz yeni eraya, yeni dövrə və qalib yüz ilə daxil oluruq. Ona görə də Qarabağın birləşdirici milli ideologiya kimi yüz illər oynadığı rolu indi yeni milli ideya əvəzləyir - qayıdış təkcə torpaqlarına fiziki dönüş yox, milli varlığına və tarixinə, ənənələrinə, əcdadlarına, qan yaddaşına dönüşdür. Ona görə az qala hər həftə həyata keçirilən dönüş mərasimləri məhdud və inzibati bir akt kimi yox, təntənəli və bütün hakimiyyət institutlarının, Vətən müharibəsi qəhrəmanlarının və ordu üzvlərinin iştirakı ilə dövlət tədbiri kimi keçirilməsi və rəsmiləşdirilməsi vacibdir.

Vətən quruculuğu: Müstəqillikdən yeni zəfər mərhələsinə

O qeyd edib ki, Böyük Qayıdış Prezident İlham Əliyevin Vətən quruculuğu proqramıdır. İşğaldan azad olunan ərazilərdə aparılan quruculuq birbaşa dövlətimizin başçısının siyasi arxitektorluğudur. Əgər XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti yalnız siyasi xəritəyə daxil olmuşdusa, Ulu Öndər Heydər Əliyev müstəqil dövlətçiliyin əsaslarını yaratdı, 2020-ci ilin Zəfəri və Böyük Qayıdış Azərbaycanın Vətən quruculuğu mərhələsini formalaşdırır.

“Prezident İlham Əliyevin ifadə etdiyi kimi, Azərbaycan qalib xalqın yeni əsrinə daxil olur. Əgər son 30 il torpaqların azadlığı uğrunda mübarizə dövrü idisə, qarşıdakı onilliklər həmin torpaqlarda həyatın, iqtisadiyyatın, mədəniyyətin qurulması dövrü olacaq. Ona görə də hər şəhərin, kəndin, yaşayış məhəlləsinin, məktəbin, xəstəxananın, yolun, körpünün təməlqoyma və açılış mərasimlərində ölkəmizin rəhbərinin iştirakı dövlətin öz xalqına verdiyi mesajdır: biz yurdumuzu birlikdə bərpa edirik. Qayıdış yalnız ev verməklə məhdudlaşmır, dolanışıq imkanlarının yaradılması, əmək ənənələrinin bərpası, iqtisadi və təsərrüfat aktivliyinin yaradılması ilə müəyyənləşir. Bu baxımdan da evlərlə yanaşı, həyətyanı sahələrin, heyvandarlıq və quşçuluq infrastrukturunun, anbarların, təsərrüfat tikililərinin, kənd klublarının da planlaşdırılması vacibdir. Kəndlinin evə dönüşü onun torpağa və əməyə qayıdışıdır. Mümkün olan hallarda yerli sakinlərin tikinti, bərpa və xidmət sahələrinə cəlb olunması həm məşğulluq yaradar, həm də mülkiyyət hissini gücləndirər. İnsan yalnız ev almır, o, öz ocağını qurduğunu hiss etməlidir”, - deyə Z.Oruc əlavə edib.

AZƏRTAC
4 iyun, 2026

İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlər məşğulluq və sosial dəstək tədbirləri ilə əhatə olunublar

Böyük Qayıdış Proqramı çərçivəsində doğma yurdlarına köçürülən keçmiş məcburi köçkünlərin layiqli yaşayışının təminatı üçün aparılan genişmiqyaslı işlərin bir istiqaməti də onların aktiv məşğulluq və sosial dəstək tədbirləri ilə əhatə olunmasıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, doğma yurdlarına qayıdan sakinlərdən iqtisadi fəal olanların ötən dövrdə 10 min 623 nəfərinin məşğulluğu artıq təmin edilib. Onlardan 7 min 915 nəfəri işəgötürənlərlə sıx əməkdaşlıq şəraitində vakansiyalar üzrə münasib işlərlə təmin edilib. 1828 nəfər isə müxtəlif fəaliyyət sahələri üzrə fərdi məşğul olanlardır.

Həmçinin 880 nəfər özünüməşğulluq proqramına cəlb edilərək, mal və materiallarla təmin olunmaqla kiçik ailə təsərrüfatlarını qurublar. Azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlərin nazirliyin önəmli məşğulluq proqramlarından olan "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı çərçivəsində iş yerləri ilə təminatı da həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə ötən dövrdə 39 əmək yarmarkası təşkil olunub. Həmin aktiv məşğulluq tədbirlərində sakinlərə ərazidəki mövcud vakansiyalar təqdim edilməklə, onlar əmək bacarıqlarına uyğun vakansiyalar üzrə işlə təmin edilirlər.

Doğma yurdlarına köçürülən sakinlərin əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnməsi üçün hazırlıq kursları da təşkil edilir. Ötən dövrdə onlardan 506 sakin həmin kurslara cəlb olunub. Kursları başa vuranların yeni öyrəndikləri peşələr üzrə işlə təminatı həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə sosial dəstək olaraq, onlara birdəfəlik müavinət (600 manat), hər il 5 gün əlavə məzuniyyət verilir, aylıq vəzifə maaşlarına əlavələr edilir.

AZƏRTAC
5 iyun, 2026

Azad olunmuş torpaqların su resursları ərzaq təhlükəsizliyinin zəmanətidir – ŞƏRH

Günümüzün aktual mövzusuna çevrilmiş qlobal iqlim dəyişməsi, geosiyasi mübarizələrin nəticəsində meydana çıxan müharibələr və bunların müxtəlif ölkələrin iqtisadiyyatına mənfi təsiri dövlətləri ərzaq təhlükəsizliyi probleminə daha ciddi yanaşmağı tələb edir.

Bu fikri AZƏRTAC-a açıqlaması zamanı kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Bəhruz Bayramov deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin ölkədə kənd təsərrüfatının vəziyyəti ilə əlaqədar keçirdiyi müşavirə də məhz bu məsələlərə həsr olunub.

"Bu məsələlər daim dövlətin diqqət mərkəzində olub. Təsadüfi deyil ki, 2025-ci ildə aqrar məhsul istehsalının həcmi 14 milyard manatdan çox olub, sektor ümumi daxili məhsulun 5,9 faizini formalaşdırıb. Aqrar sahə ölkədə məşğul əhalinin təxminən 35 faizini işlə təmin etməklə regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Ərzaq təhlükəsizliyinin təmin edilməsində su ehtiyatlarının idarə olunması da mühüm amillərdən biridir. Azərbaycanda son illər bu sahədə böyük layihələr həyata keçirilib. Taxtakörpü, Şəmkirçay, Göytəpə və digər su anbarlarının tikintisi, kanalların yenidən qurulması, müasir suvarma sistemlərinin tətbiqi kənd təsərrüfatının inkişafına ciddi dəstək olub. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yeni su layihələri isə gələcək dövrdə daha geniş əkin sahələrinin su ilə təmin olunmasına imkan yaradıb. Kənd təsərrüfatında dövlət dəstəyi mexanizmləri də ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Subsidiyalar, güzəştli kreditlər, yanacaq və gübrə dəstəyi fermerlərin fəaliyyətini stimullaşdıran əsas vasitələrdəndir. Dövlət tərəfindən yaradılmış bu imkanlar kənd təsərrüfatı istehsalçılarının xərclərinin azaldılmasına, məhsuldarlığın artırılmasına və rəqabət qabiliyyətinin gücləndirilməsinə xidmət edir", - deyə Bəhruz Bayramov qeyd edib.

B. Bayramov vurğulayıb ki, Prezident İlham Əliyevin müşavirədə vurğuladığı məsələlərdən biri də özəl sektorun kənd təsərrüfatının inkişafındakı roludur: "Dövlət proqramlarının uğurlu icrası üçün sahibkarların və investorların fəal iştirakı vacibdir. Yerli və xarici investorların kənd təsərrüfatına daha çox sərmayə yatırması yeni istehsal sahələrinin yaranmasına, texnologiyaların yenilənməsinə və aqrar sənaye kompleksinin genişlənməsinə səbəb olacaq. Müasir dövrdə kənd təsərrüfatı yalnız məhsul istehsalı ilə məhdudlaşmır. Məhsulların saxlanması, emalı, logistikası və ixracı da bu sahənin ayrılmaz tərkib hissəsinə çevrilib. Azərbaycanda son illər yaradılmış soyuducu anbar infrastrukturu məhsulların uzun müddət saxlanılmasına, itkilərin azaldılmasına və bazar imkanlarının genişlənməsinə mühüm töhfə verir.

Müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığı ikiqat artırmaq mümkündür. Bu, kənd təsərrüfatı məhsullarının ixracını da artıraraq ölkəyə əlavə valyuta axınını təmin edər. Bu gün Azərbaycanda istehsal olunan məhsullar Rusiya, Belarus, Ukrayna, Moldova. Baltikyanı ölkələrinin bazarlarında alıcılar tərəfindən rəğbətlə qarşılanır. Lakin Azərbaycanın potensialı məhsulların Avropa bazarına da çıxarılmasına imkan verir və bu imkandan istifadə edib daha çox, keyfiyyətli məhsul istehsal etmək lazımdır".

AZƏRTAC
5 iyun, 2026

Ötən həftə 149 mina və 412 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 1-7-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 48, tankəleyhinə 101 mina və 412 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1545,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
8 iyun, 2026

Keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

İyunun 9-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə vətəndaşların müraciətləri dinlənilib. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərin doğma yurdlarında rahat və təhlükəsiz yaşayış şəraitinin təmin olunması məqsədilə verdiyi tapşırıqların ardıcıllıqla həyata keçirildiyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini diqqətlə izlədiyi və onun göstərişləri ilə müvafiq tədbirlərin görüldüyü vurğulanıb.

Komitə sədri bildirib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür. Vətəndaşların müraciətləri əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub.

AZƏRTAC
9 iyun, 2026

Azad edilmiş ərazilərdə 5 hektardan bir parselləşmə işlərinin həyata keçirilməsi nəzərdə tutulur

İşğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlər faktiki olaraq yeni konsepsiya ilə qurulur. Bu ərazilərdə torpaq və əmlak münasibətlərinin formalaşdırılması Əmlak Məsələləri Dövlət Xidməti üçün hansı yeni yanaşmaları tələb edir?

Dövlət Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, ölkə başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həmin ərazilərdə iqtisadi aktivliyin təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması, torpaq ehtiyatlarının səmərəli idarəedilməsi mexanizminin yaradılması və bölgədə regional ixtisaslaşmanın artırılması dayanıqlı məskunlaşma konsepsiyasının prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Bu proqram çərçivəsində həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradıb.

"Proqramdan irəli gələrək işğaldan azad edilmiş ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektlərinin inventarlaşdırılması yekunlaşıb, daşınmaz əmlakın (torpaqların) elektron kadastr uçotunun və aerofotoplanalma işləri aparılmaqla, ortofotoxəritələr hazırlanıb, torpaqların kəmiyyət və keyfiyyət göstəriciləri dəqiqləşdirilib. Proqram çərçivəsində aparılmış uçot məlumatları əsasən deqradasiyaya məruz qalmış torpaq sahələri müəyyən edilib və əkin qatı korlanmış torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması üçün torpaqların yaxşılaşdırma (mənimsənilməsi) layihələri hazırlanıb.

Pilot layihə əsasında Zəngilan rayonunun Ağalı kəndi sakinlərinə əkin məqsədilə ayrılması üçün hər 5 hektardan bir parselləşmə layihəsi icra edilib. Digər ərazilərdə məskunlaşma prosesi aparıldıqca 5 hektardan bir parselləşmə işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Proqram çərçivəsində bu ərazilərdə yerləşən daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi təmin edilməklə məlumatlar Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilib", - deyə qurumun sorğuya cavabında bildirilir.

AZƏRTAC
10 iyun, 2026

Agentlik: Bu il 116 mindən çox şagird məzun olur

Cari tədris ilində ölkə üzrə ümumilikdə 116 min 550 nəfər məzun olur.

Bu barədə AZƏRTAC-a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, onlardan 55 min 954 nəfəri qız, 60 min 596 nəfəri oğlan şagirdlərdir.

Cari ildə işğaldan azad edilmiş ərazilərdə yerləşən ümumilikdə 25 ümumi təhsil müəssisəsində (11-də ilk dəfə olmaqla) “Son zəng” tədbiri keçiriləcək və 171 nəfər məzun məktəblə vidalaşacaq.

AZƏRTAC
11 iyun, 2026

Agentlik: Ölkə üzrə 4 min 194 ümumtəhsil məktəbi fəaliyyət göstərir

Ölkə üzrə 4 min 194 ümumtəhsil məktəbi fəaliyyət göstərir.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, onlardan 25-i işğaldan azad edilmiş ərazilərdə, 410-u isə paytaxtda yerləşir.

AZƏRTAC
12 iyun, 2026

Aysel Azadqızı

İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məşkunlaşma Fondu yaradılır

Parlament Mənzil Məcəlləsinə, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara təklif edilən dəyişiklikləri birinci oxunuşda təsdiqləyib.

AZƏRTAC xəbər verir ki, bu məsələ parlamentin iyunun 12-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusunun itirilməsi ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, Mənzil Məcəlləsinə ediləcək dəyişiklik nəticəsində yeni institut - "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məşkunlaşma Fondu" yaranacaq və bu fonda daxil olan yaşayış sahələri məcburi köçkünlərin köçürülməsi və bu sahələrin onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq. Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən, məcburi köçkün statusunun itirilməsi halları da konkretləşəcək. Yeni təklifə əsasən, şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcək. Həmçinin sözügedən qanuna təklif olunan dəyişikliyə görə, şəxs dövlət tərəfindən təklif olunan həmin yaşayış yerlərindən imtina etdikdə də məcburi köçkün statusunu itirəcək.

Layihədə sosial müdafiə tədbirlərinin müddətinə də aydınlıq gətirilir. Mövcud 3 illik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcək. Bundan başqa, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun 5-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəyişdirilir. Yeni qaydalara əsasən, dövlət öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək, bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaq.

AZƏRTAC
12 iyun, 2026

ADSEA rəsmisi: Müasir suvarma texnologiyalarının tətbiqi sahəsinin 300 min hektara çatdırılması nəzərdə tutulur

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişafı, su ehtiyatlarından səmərəli istifadə və müasir suvarma sistemlərinin tətbiqi istiqamətində genişmiqyaslı və ardıcıl tədbirlər həyata keçirilir. Regionun aqrar potensialının reallaşdırılması məqsədilə icra olunan layihələr həm infrastrukturun yenilənməsini, həm də istehsalın intensivləşdirilməsini hədəfləyir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramının müzakirəsi məqsədilə Zəngilanda keçirilən regional müşavirədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların istifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov deyib.

O qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında su ehtiyatlarının idarə olunması və müasir suvarma sistemlərinin tətbiqi genişmiqyaslı inkişaf mərhələsinə daxil olur. Ümumiyyətlə, ölkə üzrə müasir suvarma texnologiyalarının tətbiqi sahəsinin 130 min hektardan 300 min hektara çatdırılması nəzərdə tutulur. Paralel olaraq sudan faydalı istifadə səviyyəsinin 45 faizdən 95 faizə yüksəldilməsi əsas hədəflərdən biri kimi müəyyənləşib.

Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda təxminən 2 milyard kubmetr daxili su ehtiyatının mövcudluğu kənd təsərrüfatının dayanıqlı inkişafı üçün mühüm baza kimi qiymətləndirilir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı infrastrukturunun yenidən qurulması və yeni layihələrin icrası davam etdirilir. Suqovuşan, Xaçınçay, Köndələnçay və digər su anbarlarının bərpası nəticəsində 110,4 min hektar sahənin suvarılması üçün imkan yaradılıb. Bununla yanaşı, Zabuxçay su anbarı və magistral boru kəməri vasitəsilə Qubadlı və Zəngilan rayonlarında 12,1 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılıb. Sərsəng, Bərgüşadçay və Həkəriçay su anbarları üzrə iri layihələr isə icra mərhələsində və ya planlaşdırma mərhələsindədir.

“Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı su təsərrüfatı layihələri regionun kənd təsərrüfatı potensialını yeni inkişaf mərhələsinə çıxarır. Müasir suvarma sistemlərinin tətbiqi, iri su anbarlarının bərpası və yeni infrastrukturun qurulması gələcək illərdə aqrar istehsalın davamlı artımına və su ehtiyatlarının daha səmərəli idarə olunmasına şərait yaradacaq”,- deyə o əlavə edib.

AZƏRTAC
12 iyun, 2026

Aydın Yavərzadə

Nazir: İşğaldan azad olunmuş ərazilərdə infrastruktura 4 milyard manat vəsait yönəldilib – VİDEO

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2025-ci ilin dövlət büdcəsinin xərclərinin müvafiq istiqamətləri üzrə 4,5 milyard manat vəsait ayrılıb.

AZƏRTAC xəbər verir ki, bunu maliyyə naziri Sahil Babayev Milli Məclisin bu gün keçirilən plenar iclasında "2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Nazir bildirib ki, ayrılan vəsaitin 4 milyard manatı infrastruktur təyinatlı layihələrin, 440 milyon manatı sosial təyinatlı layihələrin, 10 milyon manatı müdafiə və hüquq-mühafizə təyinatlı layihələrin maliyyələşməsinə, 75 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib.

AZƏRTAC
12 iyun, 2026

https://video.azertag.az/site/video/323191

Məcburi köçkünlərin mənzil təminatı ilə bağlı qanun layihəsi plenar iclasa tövsiyə olunub

İyunun 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda komitə sədri Musa Quliyev gündəliyə bir məsələnin - Mənzil Məcəlləsində və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik olunması barədə qanun layihəsinin (ikinci oxunuş) daxil edildiyini bildirib.

Komitə sədri qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas məqsədinin işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlərin mənzil təminatının və mülkiyyət hüquqlarının daha səmərəli şəkildə tənzimlənməsi olduğunu söyləyib. Diqqətə çatdırılıb ki, layihəyə əsasən, "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məşkunlaşma Fondu" yaradılır və həmin fonda daxil edilən yaşayış sahələri məcburi köçkünlərin daimi məskunlaşdırılması, həmçinin onların mülkiyyətinə verilməsi üçün istifadə olunacaq.

Qeyd edilib ki, təklif olunan dəyişikliklər məcburi köçkünlərin uzunmüddətli sosial müdafiəsinin təmin edilməsinə, onların mülkiyyət hüquqlarının tam bərpasına və işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın formalaşdırılmasına xidmət edəcək.

Müzakirələrdə Əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev, komitənin üzvləri Vüqar Bayramov, Əziz Ələkbərov, Jalə Əliyeva və Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək qanun layihəsinə dair fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Sonra qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

AZƏRTAC
12 iyun, 2026

Azərbaycan məktəblərində "Son zəng" sədaları – VİDEO

Bu il 116 min 550 nəfər XI sinfi bitirərək məzun adını qazanır

İyunun 13-də Azərbaycanın bütün ümumi təhsil müəssisələrində bənzərsiz bir həyəcan və bayram ab-havası yaşanır. Ölkə miqyasında səslənən "Son zəng" yüz minlərlə gənc üçün sadəcə növbəti bir dərs ilinin bitməsini deyil, qayğısız məktəb illərinin başa çatmasını və müstəqil həyatın astanasında tamamilə yeni bir səhifənin açılmasını simvolizə edir. Sevinclə kədərin, unudulmaz uşaqlıq xatirələri ilə gələcək ümidlərin qovuşduğu bu əlamətdar gün hər bir məzunun yaddaşında ömürlük iz buraxır.

AZƏRTAC xəbər verir ki, cari tədris ilində ölkənin təhsil sistemində böyük canlanma və irimiqyaslı göstəricilər qeydə alınıb. Bu il respublika üzrə ümumilikdə 116 min 550 nəfər XI sinfi bitirərək məzun adını qazanır. Onların da 55 min 954 nəfərini qızlar, 60 min 596 nəfərini isə oğlanlar təşkil edir. Eyni zamanda, 131 min 407 şagird birinci sinfi uğurla başa vuraraq ibtidai təhsilin ilk pilləsini tamamlayır. Gələcəyin böyük şagird ordusunun təməli isə məktəbəqədər təhsil müəssisələrinə cəlb olunmuş 107 min 529 azyaşlı ilə qoyulub. Ümumilikdə, geridə qoyduğumuz tədris ilində ölkənin 4 min 194 ümumtəhsil məktəbində 1 milyon 678 min 621 nəfər şagird təhsil alıb. Onların təlim-tərbiyəsi ilə 132 min 178 fədakar müəllim məşğul olub.

Paytaxt Bakıda da göstəricilər olduqca diqqətçəkəndir. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 410 məktəbdə ümumilikdə 530 min 988 şagird elmin sirlərinə yiyələnib. Onlara 32 min 52 müəllim rəhbərlik edib. Paytaxt məktəblərində bu il 41 min 941 nəfər birinci sinfi, 50 min 219 nəfər IX sinfi, 37 min 222 nəfər isə XI sinfi bitirir. Əyani-qiyabi tam orta məktəb və qiyabi siniflər üzrə XII sinfi başa vuran 78 nəfər şagird də bu gün məzunlar sırasındadır. Uğurlu təhsil strategiyasının davamı olaraq, növbəti tədris ili üçün paytaxt üzrə məktəbəhazırlıq qruplarına artıq 21 min 384 uşaq cəlb edilib.

Builki "Son zəng" tədbirlərinin ən qürurverici və emosional məqamları işğaldan azad edilmiş tarixi torpaqlarımızda yaşanır. Böyük Qayıdış proqramı çərçivəsində bərpa olunan və yenidən qurulan 25 ümumi təhsil müəssisəsi doğma yurdumuzda fəaliyyətini uğurla davam etdirir. Bu məktəblərin 11-də uzun illərdən sonra ilk dəfə olaraq doğma torpağın havası altında "Son zəng"sədaları ucalır. Tarixi zəfərimizin ardınca doğma yurdun siniflərindən boylanan 171 nəfər məzun bu gün məktəblə vidalaşaraq Azərbaycanın parlaq gələcəyinə doğru ilk müstəqil addımlarını atır. Bu tarixi hadisə təkcə bir təhsil uğuru deyil, həm də dövlətimizin qüdrətinin və dirçəlişinin bütün dünyaya növbəti nümayişidir.

"Son zəng" ənənəsinin kökləri XX əsrin əvvəllərinə, keçmiş SSRİ məkanına gedib çıxır. Həmin dövrlərdə dərs ilinin yekunu sadə rəsmiyyətlə qeyd olunsa da, 1940-1950-ci illərdən etibarən bu tədbir xüsusi simvolik məna qazanmağa başladı. İlk dəfə rəmzi zəngin səslənməsi şagirdlərin uşaqlıqla vidalaşaraq böyük həyata addım atmasının təntənəli ifadəsinə çevrildi.

"Son zəng" tədbirləri hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində təşkil edilir. Həyətyanı sahəsi olmayan məktəblərdə isə tədbir idman və ya akt zallarında keçirilir. Tədbirdə valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyətin nümayəndələri də iştirak edirlər. Bakı Şəhəri üzrə Təhsil İdarəsi, regional təhsil idarələri və Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki məktəb rəhbərlərinə "Son zəng" tədbirləri zamanı şagirdlərin təhlükəsizliyinin təmin olunması üçün zəruri tədbirlərin görülməsi tapşırılıb. Bu məqsədlə məktəb ərazilərində mühafizə gücləndirilib, müvafiq orqanlarla birgə təhlükəsizlik tədbirləri həyata keçirilib.

AZƏRTAC
13 iyun, 2026

Aysel Azadqızı

https://video.azertag.az/site/video/323259

Azad edilmiş ərazilərdə 47 müəssisədə əməyin mühafizəsi ilə bağlı maarifləndirmə tədbirləri aparılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən daha 47 müəssisədə əməyin mühafizəsinə dair maarifləndirmə tədbirləri keçirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında təşkil olunan tədbirlərdə Xidmətin, Minatəmizləmə Agentliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin əməkdaşları iştirak ediblər.

İşəgötürənlərin nümayəndələri və işçilərdən ibarət 444 nəfəri əhatə edən tədbirlər zamanı iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması ilə bağlı qanunvericiliyin əsas tələbləri barədə məlumat verilib.

Əməyin mühafizəsi üzrə yeni dövlət standartlarının tətbiqi və iş yerlərinin attestasiyası qaydaları, mina təhlükəsizliyi üzrə əsas prinsiplər və risklərin qarşısının alınması yolları iştirakçıların diqqətinə çatdırılıb.

Maarifləndirmə tədbirləri çərçivəsində iştirakçılara müvafiq mövzularda yaddaş kitabçaları, bukletlər və digər məlumatlandırıcı materiallar təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

AZƏRTAC
13 iyun, 2026

15 İyun xalqın strateji seçimi idi – ŞƏRH

Liderlərin ideyalarının mahiyyəti, adətən, çox vaxt oxşar olur. Ümummilli Lider Heydər Əliyevin ideyalarını tarixdə fərqləndirən amil isə odur ki, sadəcə siyasi kursdan deyil, bu siyasi kursu davam etdirəcək dünyamiqyaslı siyasətçidən söhbət gedir. O siyasətçi ki, tarix boyu xalqımızın susuzluq duyduğu, dodağının çat verdiyi torpaq həsrətinə son qoydu. Ümummilli Lider Heydər Əliyevi fərqləndirən bir digər amil odur ki, bu dahi və bənzərsiz şəxsiyyət güclü Azərbaycan qurmaq kursunu müəyyənləşdirərək cəmiyyəti həqiqilik anlayışı ətrafında birləşdirdi. "Azərbaycançılıq" məfkurəsi ətrafında "özün olmaq" və ya "özünə sadiq olmaq" ideyası bizi bu günə qədər gətirib çıxardı. Məhz həmin yol bizi "Dəmir yumruq" ətrafında daha möhkəm, daha həmrəy etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi elmlər üzrə fəlsəfə doktoru, politoloq Şəbnəm Həsənova səsləndirib.

O bildirib ki, liderin özünəməxsusluğu daha geniş şəkildə onun şəxsi azadlıq, təşkilati və ictimai öhdəliklər üçün məsuliyyət götürmək qərarı kimi təsvir olunur ki, liderlər, sadəcə, özlərini mənəvi bir fərd kimi qurmağa kömək edəcək seçimlər etməsinlər, həm də bu seçimlərin məsuliyyətini gələcək nəsillərə aşılasınlar: "Burada əminliklə deməliyik ki, məhz Ulu Öndər Heydər Əliyev ideyaları üzrə böyüyən gənclik torpaq işğalına son qoydu. Bütün bu haqlı amilləri nəzərə alaraq deməliyik ki, Ümummilli Lider Heydər Əliyevin böyüklüyünü müəyyən etmək cəhdinin özü belə insanı ilhamlandırır".

Şəbnəm Həsənova deyib ki, bütün bu nailiyyətlər 15 İyunun məntiqi davamıdır. "Azərbaycanın müasir tarixində dövlətçiliyimizin qorunması, onun daha da möhkəmləndirilməsi baxımından 15 İyun xüsusi önəm kəsb edir. Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlməsəydi, nəinki bugünkü Zəfərdən, ümumiyyətlə Azərbaycanın mövcudluğundan danışmaq çətin olardı. Buna görə də 15 İyunu, sadəcə, Qurtuluş Günü kimi deyil, həm də bütün zəfərlərimizin başlanğıc tarixi kimi dəyərləndirməliyik. Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, iqtisadi və hüquqi islahatların aparılması, xalqın ideoloji baxımdan həmrəy olması 15 İyunun nəticəsidir. Deməli, 15 İyun xalqın strateji seçimi idi. Ona görə ki, bir dövləti güclü etmək üçün onun siyasi, iqtisadi və hərbi baxımdan möhkəm olması yetərli deyil. İdeoloji amillərin nə qədər möhkəm olması son dərəcə mühüm əhəmiyyət kəsb edir ki, Ümummilli Lider Heydər Əliyev xalqımızı ideoloji baxımından həmrəy və vahid etdi. Çünki Ulu Öndər Heydər Əliyev böyük mənəvi sarsıntıların baş verdiyi dövrdə ipləri məharətlə əlinə almağı bacardı. Bu baxımdan da 15 İyun tariximizin ən mötəbər günləri içində xüsusilə fərqlənir. Birmənalı qaydada 15 İyun bizim dönüş nöqtəmizdir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi", 1995-ci ildə qəbul edilən Konstitusiya Ümummilli Lider Heydər Əliyev idarəçiliyinin ən möhtəşəm ilkin uğurları idi. Ulu Öndər Heydər Əliyev Azərbaycanı sağlam vizyon yaratmaqla idarə edirdi, nəsillər boyu əks-səda verən dəyərlər yaratmaqla cəmiyyəti formalaşdırırdı. Çünki cəmiyyəti idarə edən liderlərin şəxsi keyfiyyətlərinin dövlətin mövcud vəziyyətini müəyyən etdiyini görürük. Yəni cəmiyyətin taleyi liderin qərarlarından və uğurlarından birbaşa asılıdır. Buna görə də dövlətlər sürətlə güclənib, güclü və bacarıqlı liderlər dövründə inkişaf etdikdə insanların həyatı yaxşılaşırsa, liderin yoxluğu da dövləti bir o qədər sarsıdır. Məhz bu reallığı aydın dərk edən Ümummilli Lider Heydər Əliyev min bir əziyyətlə qət etdiyi məsafəni yarıda və yarımçıq saxlamamaq üçün "Ona özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm" düşüncəsi ilə dünya səviyyəli bir siyasətçi yetişdirdi", - deyə politoloq diqqətə çatdırıb.

O qeyd edib ki, dövləti ağuşuna alan anarxiyadan, xaosdan çıxaran Ümummilli Lider Heydər Əliyev öz qayıdışı ilə, sadəcə, hakimiyyətdə dönüş etmədi. Bütövlükdə Azərbaycan tarixini arxaya doğru deyil, inkişafa doğru istiqamətləndirməyi bacardı. "Bu gün Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyev qətiyyətini, müdriklini davam etdirir. Bu gün Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir. İşğaldan azad edilmiş ərazilərimizdə Böyük Qayıdış Proqramı uğurla icra olunur. Məhz bu reallıq idi, Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi reallıq. Bu gün Zəfərimiz bizim qidamızdır. Bu gün Zəfərimiz havamızdır, suyumuzdur, yaşamaq eşqimizdir, fəaliyyətimizə işıq salan nurlu yoldur.

Ümummilli Lider Heydər Əliyev idarəçiliyi üzərində qurulan dövlətin təməlləri sarsılmaz və əbədidir”, - deyə Şəbnəm Həsənova vurğulayıb.

AZƏRTAC
13 iyun, 2026

Aydın Kərimov: İşğaldan azad olunmuş ərazilərdə 80 mindən çox insan yaşayır və çalışır – VİDEO

İşğaldan azad edilmiş ərazilərdə şəhərlər və kəndlər yenidən həyata qovuşur, məktəblərdə və uşaq bağçalarında uşaqların gülüş səsləri eşidilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfransda söyləyib.

O bildirib ki, yeni tikilmiş müasir yaşayış komplekslərində isə keçmiş qaçqın və məcburi köçkünlər dövlət rəhbərliyi tərəfindən onlara hədiyyə edilmiş mənzillərdə yeni həyat qururlar.

"Bu gün işğaldan azad olunmuş ərazilərdə 80 mindən çox insan yaşayır və çalışır. Onların yarıdan çoxunu keçmiş qaçqın və məcburi köçkünlər təşkil edir. Bu günə qədər Şuşada yerli və milli əhəmiyyətli təxminən 30 abidə bərpa olunub", - deyə A.Kərimov vurğulayıb.

AZƏRTAC
15 iyun, 2026

Elmir Səftərov

https://video.azertag.az/site/video/323427

Qurtuluşun açdığı yol, Zəfərin ucaltdığı Azərbaycan

İllər öncə Yeni Azərbaycan Partiyasının Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə gənclər arasında keçirdiyi "Müasir Azərbaycan-20" adlı müsabiqəyə "Mənim yaşıdım" adlı yazı ilə qatıldım. Qaliblər sırasında yer almağımı bu gün də böyük iftixar hissi ilə xatırlayıram. Aradan illər keçdi. O yazıya yenidən baxanda gördüm ki, zaman dəyişib, Azərbaycan böyüyüb, dövlətimiz daha da qüdrətlənib, bir vaxtlar arzu kimi yazılan cümlələr bu gün tariximizin ən şərəfli həqiqətinə çevrilib.

Bu fikirlər Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Mətbuat və İctimaiyyətlə əlaqələr şöbəsinin baş mütəxəssisi Aygül Bağırovanın AZƏRTAC-a təqdim etdiyi məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Mən Azərbaycanın müstəqillik nəfəsini uşaqlıq yaddaşında daşıyan nəslin nümayəndəsiyəm. Şəxsiyyət vəsiqəmin lap yuxarısında böyük hərflərlə yazılan "AZƏRBAYCAN RESPUBLİKASI" kəlməsi mənim üçün sənəd üzərindəki rəsmi ifadədən artıqdır. Bu söz mənim taleyimin, kimliyimin, qürurumun adıdır.

1993-cü ilin o ağır dönəmlərində mənim 8 yaşım vardı. Uşaq idim. ölkənin üzərindən keçən narahatlığı, evlərdəki nigaran söhbətləri, böyüklərin üzündəki qayğını tam dərinliyi ilə anlamırdım. Ancaq insanın uşaqlıq yaddaşı qəribədir: sözlərin mənasını sonradan anlayırsan, həmin günlərin havası, həyəcanı, səsi, qorxusu ruhunda qalır.

Mən Gəncədə doğulub böyüyən bir uşaq kimi o illərin ağrılarını daha yaxından hiss etmişəm. 1993-cü ilin Gəncəsi mənim yaddaşımda uşaqlığın qayğısız çağları kimi qalmayıb; qorxu, silah səsləri, çaşqınlıq, evlərə çökən nigaranlıq, böyüklərin üzündəki səssiz narahatlıq kimi qalıb. Sürət Hüseynovun silahlı dəstələrinin özbaşınalığı elə həddə çatmışdı ki, insan həyatı bir anın içində təhlükə ilə üz-üzə qalırdı. Mən bunu hər zaman böyük kədərlə xatırlayıram: atamgil yolda bir maşını ötdüklərinə görə maşının içində güllə atəşinə tutulublar. Bu hadisə mənim uşaq yaddaşımda dövlətin zəiflədiyi, qanunun susduğu, insanların taleyinin silahlı dəstələrin ixtiyarına buraxıldığı ağır günlərin simvolu kimi qalıb. O illərdə Gəncədə yaşananlar bir şəhərin ağrısından qat-qat böyük idi; bütöv Azərbaycanın taleyindən keçən sarsıntı idi. Gəncədə axşamlar silah səslərindən, qruplaşmalar arasındakı atışmalardan insanlar çölə çıxmağa çəkinirdilər. Şəhərin üzərinə elə bir qorxu çökmüşdü ki, hava qaralan kimi qapılar bağlanır, pəncərələrdən süzülən işıqlar belə ehtiyatla yanırdı. Xatirimdədir, insanlar gecədən çörək növbəsinə dayanırdılar. Bir tikə çörək üçün saatlarla gözləyən anaların, ataların, uşaqlarını sinəsinə sıxıb növbədə duran qadınların yorğun baxışları o illərin ən ağır mənzərəsi kimi yaddaşıma həkk olunub. Uşaq idim, amma anlayırdım ki, şəhərin sükutu adi sükut deyildi; bu, qorxunun, narahatlığın, sabaha inam axtaran insanların sükutu idi.

O günlərdə hər ailənin qapısında bir nigaranlıq, hər evin içində bir dua vardı. İnsanlar dövlətin gücünü, qanunun hökmünü, sabitliyin dəyərini o ağır günlərdə daha dərindən hiss edirdilər. Dövlət dayaqları laxlayanda, qanun gücünü itirəndə, insan öz doğma yurdunda təhlükənin nəfəsini duyanda bir xalqın xilasa necə ehtiyac duyduğunu daha dərindən anlayırsan. Mən bu gün 15 İyunun böyüklüyünü məhz o səkkiz yaşlı uşağın yaddaşı ilə də ölçürəm. Məhz buna görə mən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını insanların nəfəsinə rahatlıq, evlərə ümid, küçələrə əminlik, dövlətə yenidən güvən qiymətləndirirəm. Çünki həmin uşaq xaosun nə olduğunu görüb, dövlətin varlığının insan həyatı üçün necə böyük nemət olduğunu illər sonra daha aydın dərk edib.

O illər Azərbaycan üçün taleyüklü illər idi. Dövlətin varlığı böyük sınaq qarşısında idi. Xalqın sabaha inamı ilə dövlətin xilası arasında nazik, lakin müqəddəs bir körpü yaranırdı. Həmin körpünün adı Heydər Əliyev idi.

15 İyun həmin körpünün tarixə çevrildiyi gündür.

O gün xalq öz taleyini müdrikliyə, qətiyyətə, dövlətçilik zəkasına etibar etdi. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı uçurumun kənarından aldı, dövlətçiliyimizi qorudu,

sabitliyin, birliyin, milli dirçəlişin əsasını qoydu. Həmin gün Azərbaycan tarixində adi siyasi tarix kimi qalmadı; bir xalqın qurtuluş duasına çevrildi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan sanki ağır nəfəsdən sonra yenidən dirçəldi. Ölkədə sabitlik bərpa olundu, dövlət idarəçiliyində möhkəm nizam yarandı, qanunun aliliyi dövlət həyatının əsas dayağına çevrildi. Silahlı qarşıdurma təhlükəsi aradan qalxdı, xalqın sabaha inamı qayıtdı, Azərbaycan parçalanma təhlükəsindən xilas olaraq vahid dövlətçilik xətti ətrafında birləşdi. Məhz həmin qayıdışdan sonra ölkənin nəfəsi dəyişdi: qorxunun yerini inam, pərakəndəliyin yerini birlik, ümidsizliyin yerini quruculuq ruhu aldı.

Mən Azərbaycanımı çox sevirəm. Çünki bu Vətən mənim uşaqlığımın ağrılı xatirəsindən gəncliyimin quruculuq sevincinə, bu günümün Zəfər qürurunu qədər ömrümün bütün mərhələlərindən keçib. Mən bu ölkənin necə ayağa qalxdığını, necə böyüdüyünü, necə gücləndiyini görən nəsildənəm. Bir vaxtlar "Müstəqil Azərbaycan" deyəndə qəlbimizdə həm sevinc, həm nigaranlıq vardı. Bu gün isə həmin sözlərdə bütöv bir qüdrət dayanır. Azərbaycan artıq regionun söz sahibi, beynəlxalq aləmdə nüfuzlu dövlət, güclü ordusu, möhkəm iqtisadiyyatı, zəngin mədəniyyəti, milli dəyərləri, elmi, təhsili, gəncliyi və müasir inkişaf yolu ilə seçilən bir ölkədir.

Müstəqilliyin ilk illərində xalqın içində bir sual vardı: bu dövlət ayaqda qalacaqmı? Bu gün o sualın cavabını tarix özü verib. Azərbaycan ayaqda qalıb, Azərbaycan güclənib. Azərbaycan qalib xalq kimi dünyaya meydan oxuyur.

Bu gün 15 İyun haqqında düşünəndə o tarixdə başlanan böyük dövlətçilik yolundan danışırıq. O yol Ulu Öndərin ideyaları ilə başladı, Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və liderlik məharəti ilə Zəfərə çatdı.

Heydər Əliyev Azərbaycanı xilas etdi.

İlham Əliyev Azərbaycanı qalib ölkə etdi.

Bu iki cümlənin içində çağdaş tariximizin ən böyük həqiqəti dayanır. Mən vaxtilə yazırdım ki, doğma Qarabağa getmək arzusu qəlbimi daim yaşadır. Böyüklərimin, valideynlərimin söhbətlərindən Qarabağın xəyali obrazını gözlərim önündə canlandırırdım. Ağdamı, Şuşanı, Laçını, Kəlbəcəri, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını xəritədə axtarırdıq, xəbərlərdə dinləyirdik, dualarımızda yaşadırdıq. Biz Qarabağı xəyallarda sevən, Qarabağın həsrəti ilə böyüyən nəsil idik.

Bir vaxtlar "Qələbə paradını görəcəyik" deyə arzu edirdik. Bu gün Azadlıq meydanında Qələbə paradının qürurunu yaşayan xalqıq. Bir vaxtlar "bu bayrağın altından keçib Qarabağa gedəcəyik" deyə yazırdıq. Bu gün üçrəngli bayrağımız Qarabağın dağlarında, şəhərlərində, kəndlərində dalğalanır. Bu, adi tarixi hadisə çərçivəsinə sığmayan məsələdir. Bu, bir xalqın 30 illik həsrətinin göz yaşına, duasına, səbrinə, şəhid qanına, əsgər hünərinə, Ali Baş Komandanın qətiyyətinə yazılan möhtəşəm cavabdır. Uşaqlığımız Qarabağ həsrəti ilə keçdi. Övladlarımızın gəncliyi azad Qarabağın qüruru ilə böyüyür.

Bu fərq bir millətin taleyində əsrlərə bərabər dəyişiklikdir.15 İyun Milli Qurtuluş Gününün böyüklüyü də buradadır. Həmin gün qorunan Azərbaycan dövlətçiliyi bu gün Zəfər salnaməsini yazan, öz torpağını azad edən, suverenliyini tam bərpa edən qüdrətli dövlətə çevrilib. Qurtuluşdan Zəfərə aparan yolun başlanğıcı məhz həmin tarixi gündən keçdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanı parçalanma təhlükəsindən qurtarıb vahid dövlət məfkurəsi ətrafında birləşdirdi. O, xalqın özünə inamını qaytardı. O, dövlətin sütunlarını möhkəmləndirdi. O, ordunun, iqtisadiyyatın, təhsilin, mədəniyyətin, milli ideologiyanın təməlini yenidən qurdu. O, Azərbaycan adlı müqəddəs evi qorudu və onu etibarlı əllərə əmanət etdi. Bu etibarlı əllər həmin evi möhkəm qalaya çevirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada öz sözü, öz mövqeyi, öz gücü ilə tanınan dövlətə çevrildi. Bakıdan bölgələrə uzanan yollar, yenilənən şəhərlər, abadlaşan kəndlər, müasir məktəblər,

səhiyyə ocaqları, idman kompleksləri, mədəniyyət mərkəzləri bu inkişafın gözlə görünən tərəfidir. Amma bu inkişafın daha böyük mənası var: Azərbaycan insanı öz dövlətinə güvənir, öz sabahına inanır, öz bayrağının kölgəsində başı uca yaşayır.

Bu gün Bakının küçələrində gəzdikcə, Heydər Əliyev Mərkəzinin işıqlı memarlığına baxdıqca, Dənizkənarı Milli Parkda Xəzərin nəfəsini dinlədikcə, Dövlət Bayrağı Meydanında üçrəngli bayrağımızın əzəmətini gördükcə, insanın içindən bir səs keçir: bu Vətən çox əzizdir, bu dövlət çox qiymətlidir.

Bölgələrimizə səfər edəndə də eyni hissi yaşayıram. Şəki, Qəbələ, Quba, Şamaxı, Lənkəran, Astara, Masallı, Lerik... Hər bölgənin öz nəfəsi, öz gözəlliyi, öz insanı, öz ruhu var. Bu torpağın təbiəti Tanrının lütfüdür. Bu torpaqda qurulan yollar, məktəblər, mədəniyyət ocaqları, sosial layihələr isə dövlət qayğısının, insan zəhmətinin, sabaha inamın bəhrəsidir.

Bu gün Azərbaycanın inkişaf xəritəsinə azad Qarabağın bərpası da əlavə olunub. Füzulidə hava limanı, Zəngilanda yeni yaşayış məntəqələri, Laçına qayıdan həyat, Şuşanın yenidən dirçələn mədəni nəfəsi, Ağdamın xarabalıqdan böyük quruculuq meydanına çevrilməsi qəlbimizdə ayrıca bir qürur yaradır. Qarabağ artıq dirçəlişin, qayıdışın, Zəfərin, böyük gələcəyin ünvanına çevrilib.

Mən bu gün 15 İyun haqqında yazanda səkkiz yaşlı o uşağı da xatırlayıram. O uşaq ölkəsində nə baş verdiyini tam dərk etmirdi. Amma bu gün yetkin bir Azərbaycan vətəndaşı kimi həmin günün mahiyyətini daha dərindən anlayıram: 15 İyunla qorunan dövlətçilik bugünkü güclü Azərbaycanın, qalib Azərbaycanın, azad Qarabağın, bütöv suverenliyin, yüksələn dövlətçilik yolunun başlanğıcına çevrilib.

Fəxri Xiyabana gedəndə Ulu Öndərin məzarı önündə dayanarkən insanın ürəyindən çox söz keçir. Bəzən söz də aciz qalır. Düşünürsən ki, bu millətin taleyinə elə şəxsiyyətlər yazılıb ki, onlar dünyadan köçəndən sonra da Vətənin taleyində yaşamağa davam edirlər. Heydər Əliyev adı bu xalqın dövlətçilik yaddaşında əbədi yaşayır. Onun ideyaları Azərbaycanın bugünkü qüdrətində, hər qaldırılan bayraqda, hər açılan məktəbdə, hər qurulan yolda, hər azad edilən torpaqda, hər qayıdan ailənin gözündə yaşayır.

Bu gün biz 15 İyunu minnətdarlıqla qeyd edirik. Bu minnətdarlıq həm də şəhidlərimizin müqəddəs ruhuna yönəlir. Çünki Qurtuluşdan başlayan dövlətçilik yolu Zəfər zirvəsinə şəhid qanı ilə yüksəldi. O zirvədə Azərbaycan əsgərinin qəhrəmanlığı, qazilərimizin mərdliyi, xalqımızın birliyi, Ali Baş Komandanın iradəsi dayanır.

Bu yol isə Qurtuluşdan Zəfərə, Zəfərdən əbədi dövlətçilik zirvəsinə uzanan müqəddəs yoldur... Bu Vətən artıq qalib Vətən kimi sevilir. Bu Vətən bütöv xəritənin qürurunu yaşayır. Bu Vətən qayıdan xalqın sevincini, qurub-yaradan dövlətin əzmini, gələcəyə inanan gəncliyin gücünü ifadə edir. Bizim borcumuz bu Vətənin qədrini bilməkdir. Müstəqilliyin, dövlətçiliyin, Qurtuluşun, Zəfərin dəyərini anlamaqdır. Gənclər olaraq bu torpağın sabahına biliklə, savadla, zəhmətlə, vətən sevgisi ilə xidmət etməkdir.

Bu gün mən böyük fəxrlə deyirəm: Mən o günün səkkiz yaşlı şahidiyəm. Mən Qurtuluşdan Zəfərə uzanan yolun canlı şahidiyəm. Mən azad Qarabağın qürurunu yaşayan Azərbaycan vətəndaşıyam. Mən qalib ölkənin dövlətin vətəndaşıyam. Və şəxsiyyət vəsiqəmin yuxarısında yazılan "AZƏRBAYCAN RESPUBLİKASI" kəlməsinə baxanda bir daha anlayıram: Tanrının insana verdiyi ən böyük xoşbəxtliklərdən biri məhz müstəqil, qalib, bütöv Azərbaycanın vətəndaşı olmaqdır.

AZƏRTAC
15 iyun, 2026

Ötən həftə 51 mina və 497 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 8-15-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 29, tankəleyhinə 22 mina və 497 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1668,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

AZƏRTAC
16 iyun, 2026

Dövlət Proqramı azad olunmuş ərazilərdə qabaqcıl kənd təsərrüfatı praktikalarının tətbiqini hədəfləyir – VİDEO

Ağcabədi rayonunda "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi təşkil olundu. Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarından olan fermerlərin, sahibkarların və aidiyyəti dövlət qurumlarının iştirakı ilə Dövlət Proqramının hədəfləri, məqsədləri, qarşıya qoyulan tapşırıqlar və nəzərdə tutulan dövlət dəstəkləri ilə bağlı ətraflı məlumatlar verildi. Həmçinin yeni investisiyaların cəlbi ilə bağlı imkanlar sahibkarların diqqətinə çatdırıldı.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bunu Ağcabədidə jurnalistlərə açıqlamasında kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev deyib.

Zaur Əliyev qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə ümumi hədəf Dövlət Proqramının sonuna qədər aqrar fəaliyyətin təmin olunmasıdır. "Ümumilikdə azad olunmuş ərazilərdə daha yüksək dəyər yaradan məhsul istehsalını təşviq edəcək aqrar sistemin qurulması hədəflənir. Burada, həmçinin dövlət xidmətlərinin vahid pəncərə sistemi prinsipi üzərində təqdim olunması nəzərdə tutulub. Ümumilikdə, işğaldan azad olunmuş ərazilər aqrar sektorda qabaqcıl təcrübələrin tətbiqi üçün bizə geniş imkanlar açır. Dövlət Proqramı azad olunmuş ərazilərdə qabaqcıl kənd təsərrüfatı praktikalarının tətbiqini hədəfləyir".

AZƏRTAC
16 iyun, 2026

Tahir Ağaməmmədov

https://video.azertag.az/site/video/323631